RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 216 (9961) 8 oktyabr 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# QƏBƏLƏ ZİRVƏSİ




## Qlobal arenada vacib aktor kimi Türk Dövlətləri Təşkilatı vahid güc mərkəzinə çevrilir

**Bu gün Türk Dövlətləri Təşkilatı, sadəcə, əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır. Təşkilatımızın beynəlxalq səviyyədə nüfuzunun artması məmnunluq doğurur. Ortaq tarixi və etnik köklərimiz, müştərək milli-mənəvi dəyərlərimiz bizi bir ailə kimi birləşdirir.**

**Daxili siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, müsbət demoqrafiya və gənc əhali, nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii resurslar, habelə hərbi və hərbi-texniki sahədə artan potensial TDT-ni qlobal arenada vacib aktora çevirir.**

**Sevindirici haldır ki, Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşləri ilə yanaşı, qeyri-rəsmi Zirvə görüşlərinin keçirilməsi artıq ənənəyə çevrilib. Ötən il ilk dəfə Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə görüşü və bu il Budapeştdə baş tutmuş görüşümüz mühüm qərarlarla yadda qalmışdır.**

**Təşkilatımızın təməl sənədi olan Naxçıvan Sazişində sülhün qorunması və təhlükəsizlik əsas məqsəd və vəzifələr sırasında yer alıb. Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışları fonunda ötən il Şuşada qeyri-rəsmi Zirvə görüşü zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsinə və bugünkü Zirvə görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna uyğun olaraq, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir.**

**Nəqliyyat və kommunikasiya əlaqələri Türk Dövlətləri Təşkilatı çərçivəsində strateji əhəmiyyətə malikdir. Türk dünyasının nəqliyyat, kommunikasiya, tranzit və digər istiqamətlərdə potensialından istifadə məqsədilə görülən işlər qlobal əhəmiyyətli layihələrin icrasına gətirib çıxarıb.**

**TDT-yə üzv ölkələrlə Azərbaycan bir çox önəmli sərmayə layihələrini icra edib. Bu günə qədər qardaş ölkələrin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox vəsait qoyulub. Bunun əsas hissəsi Türkiyə iqtisadiyyatına qoyulmuş sərmayədir. Bununla bərabər, Azərbaycan Özbəkistanla, Qazaxıstanla, Qırğızıstanla birgə sərmayə fondları yaradıb. Bu fondlar vasitəsilə bir çox layihələr icra ediləcək.**

2-5

## İlham Əliyev Vladimir Putini təbrik edib



Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edib.

Dövlətimizin başçısı Rusiya Federasiyasının Prezidentini doğum günü münasibətilə təbrik edib.

Vladimir Putin təbriklərə görə təşəkkürünü bildirib.

Telefon danışığı zamanı Azərbaycan ilə Rusiya arasında əlaqələrin mövcud vəziyyətinə və perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

## Azərbaycan Prezidenti İlham Əliyev Qəbələdə Türkmənistan Xalq Məsləhətinin Sədri ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Qəbələdə Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşüb.**

5

## 44 günlük Vətən müharibəsi



## Düz 5 il əvvəl həmin gün

9

# QƏBƏLƏ ZİRVƏSİ

## Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib






**Oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türk Dövlətləri Təşkilatının baş katibi Kubanıçbek Ömüralıyev Zirvə görüşündə iştirak ediblər.

Prezident İlham Əliyev Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarını qarşıladı, birgə foto çəkdirildi.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.





# Prezident İlham Əliyevin çıxışı




- Hörmətli dövlət və hökumət başçıları.

Əziz dostlar.

Azərbaycanın qədim şəhəri olan Qəbələyə xoş gəlmisiniz. Qəbələ geniş coğrafiyanı əhatə edən, eramızdan əvvəl IV əsrdə əsası qoyulmuş və eramızın VIII əsrinə qədər mövcud olmuş Qafqaz Albaniyasının paytaxtı idi.

İlk növbədə Türk Dövlətləri Təşkilatına (TDT) uğurla sədrlik etmiş Qırğız Respublikasına təşəkkürümü bildirirəm.

Bu gün Türk Dövlətləri Təşkilatı, sadəcə, əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır. Təşkilatımızın beynəlxalq səviyyədə nüfuzunun artması məmnunluq doğurur. Ortaq tarixi və etnik köklərimiz, müştərək milli-mənəvi dəyərlərimiz bizi bir ailə kimi birləşdirir.

Ölkəmiz təşkilatın işinə dəstək məqsədilə Katibliyin hesabına 2 milyon ABŞ dolları məbləğində ianə köçürmüşdür.

Daxili siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, müsbət demoqrafiya və gənc əhali, nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii resurslar, habelə hərbi və hərbi-texniki sahədə artan potensial TDT-ni qlobal arenada vacib aktora çevirir.

Sevindirici haldır ki, Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşləri ilə yanaşı, qeyri-rəsmi Zirvə görüşlərinin keçirilməsi artıq ənənəyə çevrilib. Ötən il ilk dəfə Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə görüşü və bu il Budapeştdə baş tutmuş görüşümüz mühüm qərarlarla yadda qalmışdır.

Hörmətli həmkarlar, bu gün sülh və təhlükəsizlik hər bir ölkənin inkişafı üçün əsas amildir.

Təşkilatımızın təməl sənədi olan Naxçıvan Sazişində sülhün qorunması və təhlükəsizlik əsas məqsəd və vəzifələr sırasında yer alıb. Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışları fonunda ötən il Şuşada qeyri-rəsmi Zirvə görüşü zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsinə və bugünkü Zirvə görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna uyğun olaraq, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir.

Məlumdur ki, təhlükəsizlik təmin edilmədən inkişaf mümkün deyil. Beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulduğu dövrdə ölkələrimiz arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq çox önəmli amillərdən biridir. Bu çərçivədə müttəfiqimiz olan Türkiyə ilə dərin əməkdaşlıq mövcuddur. Yalnız son bir ildə Türkiyə ilə birgə 25-dən artıq ikitərəfli və çoxmillətli hərbi təlimlər keçirilmişdir.

Ölkələrimiz arasında hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əməkdaşlığı nəzərə alaraq, 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif edirəm.

Bugünkü dünyada hərbi güc hər bir ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün əsas amilidir.

2020-ci il 44 günlük Vətən müharibəsində tarixi Zəfərimiz, həmçinin 2023-cü ildə qətiyyətli antiterror tədbirləri nəticəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyuldu. Bununla da ölkəmizin ərazi bütövlüyü və əzəli torpaqlarımız üzərində suverenliyi bərpa olundu. Bu tarixi nailiyyət yalnız Azərbaycanın milli iradəsinin və əzmkar mübarizəsinin təntənəsi deyil, eyni zamanda bölgədə ədalətin, sülhün və sabitliyin bərqərar olunmasına mühüm töhfədir.

İki ay əvvəl Vaşinqtonda, Ağ Evdə Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanması Cənubi Qafqazı sülh məkanına çevirəcək. Vaşinqton Zirvəsi çərçivəsində, eyni zamanda ATƏT-in Minsk qrupunun və əlaqədar strukturların bağlanması üçün edilmiş birgə müraciətə uyğun olaraq, sentyabrın 1-də ATƏT tərəfindən qəbul edilmiş qərarla keçmiş münaqişənin bu qalıqları da aradan qaldırıldı.

Beləliklə, atdığımız addımlar Azərbaycanın irəli sürdüyü sülh gündəliyini bir daha təsdiq etdi.

Biz Ermənistan işğalını heç vaxt unutmayacağıq. Şəhidlərimizin əziz xatirəsini həmişə qəlbimizdə saxlayacağıq. Onların qanını biz döyüş meydanında aldıq. İşğalçını əzəli torpaqlarımızdan qovduq, Zəfər çaldıq və eyni zamanda ədalətli sülhə nail olduq.

Əziz dostlar, nəqliyyat və kommunikasiya əlaqələri Türk Dövlətləri Təşkilatı çərçivəsində strateji əhəmiyyətə malikdir. Türk dünyasının nəqliyyat, kommunikasiya, tranzit və digər istiqamətlərdə potensialından istifadə məqsədilə görülən işlər qlobal əhəmiyyətli layihələrin icrasına gətirib çıxarıb.

Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır. Ölkəmiz Türkiyə ilə Mərkəzi Asiya arasında coğrafi, iqtisadi, nəqliyyat və digər sahələrdə körpü rolunu oynayır.

2022-ci ildən bəri Orta dəhlizlə yükdaşımalar təqribən 90 faiz artıb. Dəhliz boyu tranzit müddətləri əhəmiyyətli dərəcədə azalıb. Xəzərin ən böyük ticarət donanması, yaxın illərdə gücü ildə 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, 9 beynəlxalq hava limanı, regionun ən böyük yükdaşıma aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirib.

Bu çərçivədə Vaşinqton Zirvəsinin digər mühüm nəticələrindən biri də Zəngəzur dəhlizinin açılmasıdır. Zəngəzur dəhlizi həm Orta dəhliz, həm də "Şimal-Cənub" dəhlizi çərçivəsində yeni nəqliyyat arteriyası və ikinci marşrut kimi mühüm əhəmiyyət kəsb edir.

Sülh, regional bağlantılar və iqtisadi inkişafla əlaqəli olan digər mühüm istiqamət enerji təhlükəsizliyidir. Ölkəmiz bu məqsədlərin qlobal səviyyədə təmin edilməsində fəal rol oynayır. Azərbaycan bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində özünü etibarlı və əvəzolunmaz tərəfdaş kimi təsdiqləyib.

Şaxələndirilmiş neft və qaz kəmərləri vasitəsilə Xəzər regionunun beynəlxalq bazarlara birləşdirilməsində strateji rol oynayırıq. Hazırda biz 14 ölkəyə təbii qaz ixrac edirik. Coğrafi əhatəsinə görə boru kəmərləri ilə təbii qaz ixrac edən ölkələr sırasında Azərbaycan birinci yerdədir.

Azərbaycan həmçinin günəş, külək və su elektrik enerjisi kimi bərpaolunan enerji mənbələrinə böyük sərmayələr cəlb edir. 2030-cu ilə qədər enerji istehsalımızın təxminən 40 faizi bərpaolunan mənbələr hesabına təmin ediləcək.

Hazırda biz Orta Asiya, Azərbaycan, Türkiyə, Avropa "yaşıl enerji" dəhlizi üzərində işləyirik.

TDT-yə üzv ölkələrlə Azərbaycan bir çox önəmli sərmayə layihələrini icra edib. Bu günə qədər qardaş ölkələrin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox vəsait qoyulub. Bunun əsas hissəsi Türkiyə iqtisadiyyatına qoyulmuş sərmayədir. Bununla bərabər, Azərbaycan Özbəkistanla, Qazaxıstanla, Qırğızıstanla birgə sərmayə fondları yaradıb. Bu fondlar vasitəsilə bir çox layihələr icra ediləcək.

Ümumilikdə, atılan addımlar türk dünyası daxilində iqtisadi inteqrasiyanın, enerji və nəqliyyat sahəsində dost və qardaş ölkələrimiz arasında əməkdaşlığın dərinləşməsinə və regionumuzun dayanıqlı inkişafına xidmət edir.

Qeyd etdiyim kimi, ortaq tarixi və etnik köklərimiz, dillərimiz bizi bir ailə kimi birləşdirir. Burada 1926-cı ildə Bakıda təşkil edilmiş I Türkoloji Qurultayın tarixi əhəmiyyətini vurğulamaq istərdim.

Gələn il I Türkoloji Qurultayın keçirilməsinin 100 illik yubileyinin Türk Dövlətləri Təşkilatı çərçivəsində təntənəli şəkildə təşkil olunmasını təklif edirəm.

Əminəm ki, Zirvə görüşümüz qəbul edəcəyimiz qərarlarla Türk Dövlətləri Təşkilatının mövqeyini daha da gücləndirəcək, xalqlarımızın rifahına və təhlükəsizliyinə əlavə töhfə verəcəkdir.

Çıxışımın sonunda Qarabağın və Şərqi Zəngəzurun bərpasına dəstək üçün qardaş ölkələrə bir daha təşəkkürümü bildirirəm. Füzulidə Mirzə Uluqbəy adına məktəb, Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi, Ağdamda Manas adına məktəb artıq fəaliyyətdədir. Bu, özbək, qazax, qırğız qardaşlarımızın hədiyyəsidir. Macar qardaşlarımızın hədiyyəsi Cəbrayılda tikilən məktəbdir. Türkmən qardaşlarımızın hədiyyəsi - bu gün təməli qoyulan Füzuli məscididir. Qardaş Türkiyənin şirkətləri bir çox tunellər, körpülər, yollar inşa edir. Azərbaycan xalqı bu qardaş dəstəyini heç vaxt unutmayacaq.

Sağ olun.

*Ardı 3-cü səh.*

# QƏBƏLƏ ZİRVƏSİ

## Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib


























*Əvvəli 2-ci səh.*

Zirvə Görüşü digər dövlət və hökumət başçılarının çıxışları ilə davam edib.

Göstərilən qonaqpərvərliyə və yüksək təşkilatçılığa görə Prezident İlham Əliyevə və Azərbaycan xalqına təşəkkür edən Qırğız Respublikasının Prezidenti **Sadır Japarov** dedi: "Cənab baş katib, hörmətli dövlət başçıları. Əvvəlcə mən İlham Heydər oğlu Əliyevə və qardaş Azərbaycan xalqına göstərilən qonaqpərvərliyə və bu görüşün keçirilməsinə görə təşəkkür edirəm. Qəbələ iki minillik tarixə malik qədim bir şəhərdir və bizim burada yığışmağımız heç də təsadüfi deyil. Oktyabrın 3-də 16 illiyi tamam olan Naxçıvan Sazişi olduqca vacib bir sənəddir. Bu qısa dövr ərzində təşkilatımız dinamik şəkildə inkişaf edib və regional səviyyədə nüfuzunu gücləndirib".

Qırğızıstan Prezidenti ölkəsinin hər zaman sülhün, sabitliyin və mehriban qonşuluğun tərəfdarı olduğunu vurğulayaraq bildirib: "Biz Azərbaycan Respublikasının Prezidenti ilə Ermənistanın baş naziri arasında imzalanmış Birgə Bəyannaməni alqışlayırıq. Bu, hər iki ölkənin siyasi rəhbərliyinin iradəsini göstərir və bunun sayəsində Cənubi Qafqazda davamlı sülh, təhlükəsizlik və etimad qurulacaq. Bu sahədə zati-aliləri İlham Heydər oğlu Əliyevin məhz sülh prosesinə olan töhfəsini xüsusi qeyd etmək istəyirəm".

Prezident Sadır Japarov 2026-cı ildə Dünya Köçəri Oyunlarının ölkəsində keçiriləcəyini vurğuladı və Zirvə görüşünün iştirakçılarını fəxri qonaq qismində həmin Oyunlara dəvət etdi.

"Bu Zirvə görüşü çərçivəsində Qırğız Respublikası təşkilata sədrliyini başa çatdırır və onu qardaş Azərbaycana ötürür. Əminəm ki, Azərbaycanın sədrliyi çərçivəsində təşkilat öz inkişafını davam etdirəcək və beynəlxalq müstəvidə nüfuzunu daha da artıracaq. Eyni zamanda türk xalqlarının firavanlığına yönəlmiş bütün təşəbbüslər inkişaf edəcək", - deyə Sadır Japarov bildirib.

❖ ❖ ❖

Türkdilli xalqlar arasında birliyin və əməkdaşlığın gücləndirilməsinin strateji əhəmiyyətini vurğulayan Qazaxıstan Prezidenti **Kasım-Jomart Tokayev** Azərbaycan Prezidenti İlham Əliyevə qonaqpərvərliyə və tədbirin yüksək səviyyədə təşkilinə görə təşəkkür etdi. Qazaxıstan Prezidenti Azərbaycan ilə Ermənistan arasında sülh istiqamətində imzalanmış Birgə Bəyannaməni tarixi addım adlandıraraq dedi: "Mən Azərbaycan ilə Ermənistan arasında sülhlə bağlı Birgə Bəyannamənin imzalanmasını təqdir etmək istəyirəm və inanıram ki, bu, 30 il davam edən münaqişənin həllində mühüm tarixi addım olacaq. Bu gün mövcud geosiyasi vəziyyətin fonunda türk dövlətləri arasındakı birlik çox vacibdir. Əziz qardaşlar, məşhur Azərbaycan şairi Bəxtiyar Vahabzadə vaxtilə qeyd etmişdir ki, "Türkün türklə ədavətə haqqı yoxdur". Bizim ağsaqqalların dedikləri bu kimi sözləri çox yüksək tutmalı və türk dövlətlərini bir araya gətirməkdə əlimizdən gələni etməliyik. Növbəti sədrlik bizim azərbaycanlı qardaşlarımıza keçir. Bu işdə Prezident İlham Əliyevə təşəkkür edir və uğurlar diləyirəm".

Kasım-Jomart Tokayev Qazaxıstan, Azərbaycan və Özbəkistan arasında yaradılmış "yaşıl enerji" dəhlizini türk dünyasında uğurlu əməkdaşlığın nümunəsi kimi qiymətləndirib.

❖ ❖ ❖

Türkiyə Respublikasının Prezidenti **Rəcəb Tayyib Ərdoğan** çıxışında türk xalqlarının mədəni irsini qorumaqla yanaşı, süni intellekt texnologiyalarını da fəal şəkildə inkişaf etdirəcək böyük türk dili modelinin tətbiqinin vacibliyindən danışıb. O həmçinin ölkəsinin Cənubi Qafqazda baş verənləri izlədiyini, bölgədə sülhə və sabitliyə töhfə verəcək addımların əhəmiyyətini vurğulayaraq deyib: "Azərbaycan ilə Ermənistan arasında avqustun 8-də imzalanan Birgə Bəyannaməni bu baxımdan xeyirli addım olaraq görür, davamının gəlməsini arzulayırıq. Bu gün bir daha türk dövlətləri olaraq aramızdakı həmrəylik, qarşılıqlı hörmət və qardaşlıq ruhu ilə gələcəyə əmin addımlarla irəlilədiyimizi göstərdik. Biz böyük türk dünyasını daha da gücləndirərək övladlarımıza miras qoyacağıq. Bir azdan imzalayacağımız Qəbələ Bəyannaməsinin və qəbul edəcəyimiz qərarların türk dünyası başda olmaqla, bütün dost və qardaş ölkələrə xeyirli olmasını diləyir, Azərbaycana və dəyərli qardaşım hörmətli Əliyevə mükəmməl evsahibliyi üçün yenidən təşəkkürümü çatdırır, Türk Dövlətləri Təşkilatının üzvü olan dost və qardaş ölkələrin xalqlarına ən səmimi sevgilərimi göndərirəm".

❖ ❖ ❖

Türk dövlətləri arasında iqtisadiyyat, ticarət, nəqliyyat əlaqələrinin inkişafı istiqamətində atılan addımların əhəmiyyətini qeyd edən Özbəkistan Respublikasının Prezidenti **Şavkat Mirziyoyev** Azərbaycanla Ermənistan arasında sülh danışıqları prosesinə toxunaraq bildirdi: "Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə yüksəksəviyyəli təşkilatçılığa və qonaqpərvərliyə görə təşəkkür edirəm. Sizin təşəbbüsləriniz sayəsində biz son illərdə Azərbaycanın müxtəlif guşələrini ziyarət etmişik. Bu gün biz gözəl Qarabağın inkişafının, Şuşa, Xankəndi və Ağdam şəhərlərində həyata keçirilən işlərin şahidiyik. Biz Sizin yaxın dostlarınız kimi bu inkişafa olduqca sevinirik. Heç bir mübaliğəsiz demək olar ki, Ermənistanla imzaladığınız sülhlə bağlı Birgə Bəyannamə məhz Sizin siyasi iradəniz sayəsində mümkün olmuşdur və bu, türk dövlətlərinin birgə nailiyyətidir. Bu Bəyannamə ilə iqtisadiyyat, ticarət, nəqliyyat və humanitar sahələrdə də geniş əməkdaşlıq imkanları açılır".

❖ ❖ ❖

Türkmənistan Xalq Məsləhətinin Sədri **Qurbanqulu Berdiməhəmmədov** hazırda dünyadakı vəziyyət fonunda ölkələrimiz arasında əməkdaşlığın, sülhün, sabitliyin və etimadın gücləndirilməsinin vacibliyini vurğulayaraq qeyd etdi: "İlk növbədə mən əziz qardaşım, zati-aliləri İlham Heydər oğlu Əliyevə bu tədbirdə iştirak etmək üçün dəvətinə və mənə göstərilmiş səmimi qonaqpərvərliyə görə təşəkkür edirəm.

Türk Dövlətləri Təşkilatı birgə tarixə, mədəniyyətə, irsə və dilə malik qardaş xalqları bir araya gətirir. Təşkilatın əsas hədəfi həmrəyliyi, dostluğu və qardaşlığı gücləndirmək, regional və beynəlxalq səviyyədə birgə fəaliyyəti təşviq etməkdir".

❖ ❖ ❖

Macarıstanın Baş naziri **Viktor Orban** çıxışında türk dövlətləri arasında bəşəri dəyərlərin qorunduğu, sabitliyin və qarşılıqlı inamın hökm sürdüyü bir mühiti müşahidə etməsindən məmnunluğunu bildirdi, dövlətimizin başçısının həyata keçirdiyi bərpaolunan enerji layihələrini, sülhə və əməkdaşlığa verdiyi önəmi vurğuladı. "Hörmətli cənab Prezident, Sizin heyrətamiz nailiyyətləriniz, iqtisadiyyatın inkişafı, bərpaolunan enerji resursları və bu sahəyə qoyulan sərmayə onun sübutudur ki, Mərkəzi Asiya regionu və bu region Avropa İttifaqının "qızıl ehtiyatı"dır. Cənab Prezident Əliyevə təşəkkür edirəm ki, Azərbaycanın ən mühüm qaz yatağında macar şirkətinin iştirakı üçün şərait yaratdı. Bu, bizim üçün çox mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, Prezident Əliyevi və Azərbaycan xalqını əmin etmək istəyirəm ki, biz təkcə dost deyilik, biz strateji tərəfdaşıq", - deyə Baş nazir əlavə edib.

❖ ❖ ❖

Azərbaycanın qədim tarixi şəhəri olan Qəbələdə keçirilən Zirvə görüşünə dəvətə görə Prezident İlham Əliyevə və Azərbaycan xalqına dərindən təşəkkür etdiyini bildirən Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti **Ersin Tatar** dedi ki, bu Zirvə görüşünün ortaq tariximizə qızıl hərflərlə yazılmış Qarabağ Zəfərinin beşinci ildönümünə təsadüf etməsi mühüm məna daşıyır. "Qardaş Azərbaycanın qətiyyəti, cəsarəti və haqlı mübarizəsi ilə qazandığı bu Qələbə yalnız ərazilərinin işğaldan azad edilməsi deyil, ədalətin və milli qətiyyətin zəfəridir. Bu, böyük türk dünyasının ortaq zəfəridir. Qarabağ Zəfəri bizə bir daha göstərdi ki, türk dünyası birlikdə olanda hər çətinliyin öhdəsindən gəlmək mümkündür. Həmrəy şəkildə fəaliyyət göstərən türk dövlətləri yalnız öz təhlükəsizliyini deyil, regionda sülhün, sabitliyin və rifahın ən güclü təminatçısıdır. Şimali Kipr Türk Cümhuriyyəti olaraq biz Azərbaycanın haqlı mübarizəsində hər zaman yanında olduq və bundan sonra da olacağıq. Biz eyni coğrafiyanın, eyni mədəniyyətin, eyni kökdən bəslənən ortaq tarixin mirasçılarıyıq. Biz bu gün yalnız bir araya gəlmirik, eyni zamanda ortaq gələcəyimizi birlikdə formalaşdırırıq. Bu mühüm Zirvə görüşündə bizi səmimi qonaqpərvərliklə qarşılayan Azərbaycan Prezidenti, Qarabağ fatehi cənab İlham Əliyevə bir daha təşəkkürümü bildirmək istəyirəm", - deyə E.Tatar bildirdi.

❖ ❖ ❖

Türk Dövlətləri Təşkilatının baş katibi **Kubanıçbek Ömüralıyev** çıxışında qeyd etdi ki, qədim Qəbələ şəhərində bir araya gəlmək, xüsusilə də Azərbaycan ilə Ermənistan arasında sülhün nizamlanması ilə bağlı Birgə Bəyannamənin imzalanmasından sonra toplaşmaq çox mühüm rəmzi məna daşıyır. O dedi: "Hörmətli dövlət və hökumət başçıları, Vaşinqtonda Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında Zəngəzur dəhlizinin təmin edilməsi tarixi əhəmiyyətə malikdir və bu, türk dünyasını geosiyasi səviyyədə gücləndirəcək. Zəngəzur dəhlizinin açılması qədim İpək yolunun bərpası ilə yanaşı, bizim ölkələr üçün yeni iqtisadi və tranzit imkanları yaradacaq. Çin, Qırğızıstan, Özbəkistan dəmir yolu layihəsi istismara verildikdən sonra Orta dəhlizin strateji əhəmiyyəti daha da artacaq".

"Bu gün Türk Dövlətləri Təşkilatı mühüm regional təşkilata çevrilir" deyən baş katib Türk Universitetlər Birliyinin Daimi Katibliyinin və xüsusi proqram fondunun təsis edildiyini bildirdi və qeyd etdi ki, Azərbaycanın ianə etdiyi 2 milyon ABŞ dollarının bir hissəsi məhz bu layihənin maliyyələşdirilməsinə yönəldiləcək.

Azərbaycanın təşkilata sədrliyinin əməkdaşlığın dərinləşdirilməsi, iqtisadi əlaqələrin gücləndirilməsi və qarşılıqlı tərəfdaşlığın inkişafında uğurlu olacağına əminliyini bildirən Kubanıçbek Ömüralıyev dedi: "Bu gün tərəfinizdən qeyd edilən vacib fikirlər və irəli sürülmüş təkliflər Qəbələ Bəyannaməsinə və bizim Katibliyin fəaliyyət planına daxil ediləcək. Tədbirin yüksək səviyyədə təşkilinə və səmimi qonaqpərvərliyə görə zati-aliləri cənab İlham Əliyevə bir daha təşəkkür edirəm".

*Ardı 4-cü səh.*

# QƏBƏLƏ ZİRVƏSİ

## Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib














*Əvvəli 3-cü səh.*

Zirvə görüşünə yekun vuran **Prezident İlham Əliyev** dedi:

- Hörmətli həmkarlar.

Əziz dostlar.

Bugünkü müzakirələrə verdiyiniz dəyərli töhfələr üçün hər birinizə təşəkkür edirəm. Səsləndirilən bəyanatlar və fikirlər Türk Dövlətləri Təşkilatının gələcək fəaliyyəti üçün əhəmiyyətli istiqamətləri müəyyən edir.

Təşkilatımızın Katibliyinə və Ağsaqqallar Şurasına ümumi işimizə verdikləri töhfəyə görə təşəkkürümü bildirirəm. Əminəm ki, bugünkü Zirvə görüşü dostluğumuzu, qardaşlığımızı daha da gücləndirəcək.

Sağ olun!

❖❖❖

Sonra Türk Dövlətləri Təşkilatının 12-ci Zirvə Görüşünün Bəyannaməsinin imzalanması mərasimi oldu.

❖❖❖

Daha sonra çıxış edən **Prezident İlham Əliyev** dedi:

- Əziz dostlar.

Əziz qardaşım, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov iyul ayında Qarabağa səfəri zamanı Füzulidə Türkmənistan tərəfindən məscidin tikintisini təklif edib. Biz bu hədiyyəyə görə qardaş Türkmənistana təşəkkür edirik.

Bu Zirvə görüşü çərçivəsində məscidin təməlqoyma mərasimi nəzərdə tutulub.

İndi bütün qardaş ölkələrin rəhbərlərini təməlqoyma mərasiminə dəvət edirəm.

❖❖❖

Sonra məscidin təməlqoyma mərasimi keçirildi.












# QƏBƏLƏ ZİRVƏSİ

## Türkmənistan tərəfindən Füzulidə tikiləcək məscidin onlayn formatda təməli qoyulub






**Oktyabrın 7-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov və Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak edən digər dövlət və hökumət başçıları Türkmənistan tərəfindən Füzulidə tikiləcək məscidin onlayn formatda təməlini qoyublar.**

AZƏRTAC xəbər verir ki, Türkmənistan tərəfindən Füzulidə inşa ediləcək məscid kompleksinin ümumi ərazisi 1 hektardan çox olacaq. Məscid binasında hər biri 40 metr olmaqla 2 minarə inşa ediləcək. Əsas günbəzin hündürlüyü isə 30 metr təşkil edəcək. Burada eyni vaxtda 500 nəfər ibadət edə biləcək.

Qeyd edək ki, Qarabağın və Şərqi Zəngəzurun bərpası istiqamətində Azərbaycan dövlətinin gördüyü işlərə TDT-yə üzv və müşahidəçi ölkələr də öz töhfələrini verir. Belə ki, Türkmənistan tərəfindən Füzulidə məscidin tikintisi ilə yanaşı, bu rayonda Özbəkistan tərəfindən Mirzə Uluqbəy adına məktəbin, Qazaxıstan tərəfindən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin, Ağdamda Qırğızıstan tərəfindən Manas adına məktəbin tikilib istifadəyə verilməsi, Macarıstan tərəfindən Cəbrayılda məktəb binasının tikilməsi, Türkiyə şirkətlərinin bir çox tunel, körpü və yolların inşasında iştirakı bunun əyani göstəricisidir.

## Qəbələdə TDT-nin Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi nahar verilib



Oktyabrın 7-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Türk Dövlətləri Təşkilatının (TDT) 12-ci Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi nahar verilib.

## Azərbaycan Prezidenti İlham Əliyev Qəbələdə Türkmənistan Xalq Məsləhətinin Sədri ilə görüşüb



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Qurbanqulu Berdiməhəmmədov Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkmənistan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Söhbət zamanı Azərbaycan Prezidentinin Türkmənistan Xalq Məsləhətinin Sədri ilə görüşləri, həmçinin onun bu ilin iyulunda ölkəmizə səfəri məmnunluqla xatırlandı.

Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələ Zirvəsinin əhəmiyyətinə toxunuldu, bu sammitin türk dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsi və xalqlararası əlaqələrin daha da inkişaf etdirilməsində rolu vurğulandı. Görüşdə qardaşlıq, mehriban qonşuluq və əməkdaşlıq prinsiplərinə əsaslanan Azərbaycan-Türkmənistan dövlətlərarası əlaqələrinin hazırkı səviyyəsi yüksək qiymətləndirildi, xalqlarımızı dərin qardaşlıq ənənələrinin birləşdirdiyi qeyd olundu. Siyasi, iqtisadi, nəqliyyat, energetika, parlamentlərarası, humanitar, mədəni, təhsil və digər sahələrdə əlaqələrimizin uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimizin beynəlxalq təşkilatlarda səmərəli əməkdaşlığına toxunuldu.

Azərbaycan Prezidenti və Türkmənistan Xalq Məsləhətinin Sədri əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar.

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfərə gəlib



**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak etmək üçün oktyabrın 7-də Azərbaycana səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı hava limanında Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və digər rəsmi şəxslər qarşılayıblar.

## Türkmənistan Xalq Məsləhətinin Sədri Azərbaycana səfərə gəlib



**Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak etmək məqsədilə oktyabrın 7-də Azərbaycana səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovu hava limanında Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və digər rəsmi şəxslər qarşılayıblar.

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri başa çatıb



**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına səfəri oktyabrın 7-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və digər rəsmi şəxslər yola salıblar.

## Macarıstanın Baş naziri Viktor Orbanın Azərbaycana səfəri başa çatıb



**Macarıstanın Baş naziri Viktor Orbanın Azərbaycan Respublikasına səfəri oktyabrın 7-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Macarıstanın Baş naziri Viktor Orbanı Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və digər rəsmi şəxslər yola salıblar.

# Qəbələdə TDT-nin Xarici İşlər Nazirləri Şurasının toplantısı olub



Oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Xarici İşlər Nazirləri Şurasının toplantısı keçirilib.

AZƏRTAC xəbər verir ki, iclas TDT Dövlət Başçıları Şurasının Qəbələ Zirvəsi çərçivəsində baş tutub.

Toplantıda açılış nitqi ilə çıxış edən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, beynəlxalq qurumlara inamın sarsıldığı dövrdə TDT-yə üzv ölkələr arasında qardaşlıq və qarşılıqlı etimad əsasında qurulan əməkdaşlıq əlaqələrinin dinamikası hamımız üçün təkcə qürur mənbəyi deyil, həm də gələcəyə ümidlə baxmağımıza möhkəm əsasdır. "Bu gün təşkilatımızın daha da gücləndirilməsi üçün üzv dövlətlərin təkliflərini dinləyəcəyik. Prezident İlham Əliyevin təşəbbüsü ilə TDT-nin illik Zirvə görüşlərinin sayının 2-yə çatdırılması əməkdaşlıq imkanlarımızın çevik, dərin və ətraflı müzakirəsi üçün fürsət yaradıb", - deyə nazir əlavə edib.

Mövcud qlobal və regional təhlükəsizlik çağırışlarının qarşısında hərtərəfli siyasi koordinasiya və həmrəylik nümayişinin son dərəcə vacib olduğuna diqqət çəkən C.Bayramov qeyd edib ki, formalaşmaqda olan yeni beynəlxalq təhlükəsizlik arxitekturasında TDT-nin gücü birliyin rəmzi kimi daha mühüm rol oynamaq potensialına malikdir. "Azərbaycanın onilliklər boyunca münaqişə vəziyyətində olduğu Ermənistan ilə normallaşma prosesi istiqamətində göstərdiyi ardıcıl səylər, məqsədyönlü fəaliyyətlər də regionumuzda sülh və sabitliyin bərqərar edilməsinə hesablanıb", - deyə o bildirib.

Nazir diqqətə çatdırıb ki, TDT-yə üzv dövlətlər coğrafi baxımdan təbii nəqliyyat, logistika, tranzit xətlərini təşkil edərək, Avropa və Asiya qitələri arasında körpü rolunu oynayır. "Təşkilat bu istiqamət üzrə nəhəng imkanlara malikdir. Bu xətt eyni zamanda Orta dəhlizin ayrılmaz parçasıdır. Vaşinqton Zirvə Görüşü çərçivəsində Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında maneəsiz gediş-gəlişi təmin edəcək TRIPP marşrutunun bəyan edilməsi regionumuzda bağlantıların şaxələndirilməsi baxımından mühüm addımdır".

TDT-nin Xarici İşlər Nazirləri Şurasının toplantısı işini müzakirələrlə davam etdirib.

# TDT-nin Xarici İşlər Nazirləri Şurasının iclasında bir sıra vacib sənədlər təsdiq edilib

Oktyabrın 7-də Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Xarici İşlər Nazirləri Şurasının toplantısı çərçivəsində bir sıra vacib sənədlər təsdiq edilib.















AZƏRTAC xəbər verir ki, iclasda qəbul olunan sənədlər TDT-nin institusional əsaslarının möhkəmləndirilməsinə, üzv və müşahidəçi dövlətlər arasında əməkdaşlığın genişləndirilməsinə xidmət edir.

İclasda aşağıdakı qərarlar qəbul olunub:

1. Türk Akademiyasının Prosedur Qaydalarının 1-ci və 4-cü maddələrinə düzəliş edilməsi haqqında qərar;
2. Türkmənistana Türk Akademiyasında müşahidəçi statusunun verilməsi haqqında qərar;
3. Türkmənistana Türk Mədəniyyəti və İrsi Fondunda müşahidəçi statusunun verilməsi haqqında qərar;
4. TDT Katibliyinin 2026-cı il üzrə büdcəsinin təsdiq edilməsi (Xarici İşlər Nazirləri Şurasının iclasının protokolu vasitəsilə);
5. TDT Katibliyinin 2024-cü il üzrə maliyyə hesabatının təsdiq edilməsi (Xarici İşlər Nazirləri Şurasının iclasının protokolu vasitəsilə);
6. Türk Akademiyasının 2026-cı il üzrə büdcəsinin təsdiq edilməsi (Xarici İşlər Nazirləri Şurasının iclasının protokolu vasitəsilə);
7. Türk Mədəniyyəti və İrsi Fondunun 2026-cı il üzrə büdcəsinin təsdiq edilməsi (Xarici İşlər Nazirləri Şurasının iclasının protokolu vasitəsilə).

# QDİƏT PA-nın Sosial və humanitar siyasət komitəsinin iclası keçirilib

Oktyabrın 7-də Milli Məclisdə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (QDİƏT PA) Sosial və humanitar siyasət komitəsinin 65-ci iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov, QDİƏT PA-da Azərbaycan parlament nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Hesablayıcı komissiyasının sədri Eldar Quliyev, QDİƏT PA-nın Sosial və humanitar siyasət komitəsinin sədri, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, QDİƏT Parlament Assambleyasının baş katibi Asəf Hacıyev və quruma üzv ölkələrin parlament təmsilçiləri iştirak ediblər.

İclasın açılışında çıxış edən QDİƏT PA-nın Sosial və humanitar siyasət komitəsinin sədri Musa Quliyev tədbir iştirakçılarını salamlayaraq, sosial rifahın yüksəldilməsi, humanitar dəyərlərin təşviqi, inklüziv cəmiyyətin qurulması istiqamətində birgə öhdəliklərin əhəmiyyətindən danışıb.

Musa Quliyev komitənin iclasının "QDİƏT regionunda davamlı sosial-iqtisadi inkişaf üçün süni intellekt - sosial aspektlər" mövzusuna həsr olunduğunu diqqətə çatdırıb. O, hazırda bütün dünyada süni intellektin geniş yayılmaqda olduğunu deyərək, cari ilin mart ayında Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nın hazırlandığını vurğulayıb. Sənədin ölkəmizdə süni intellektin inkişafının sürətləndirilməsi, bu sahədə tədqiqatların aparılmasının təşviqi, süni intellekt üzrə informasiya texnologiyalarının və onların idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi baxımından önəmindən bəhs edib.

Qeyd olunub ki, iclasda komitənin 2025-ci il 23-25 noyabr tarixlərində Sofiyada keçiriləcək QDİƏT PA-in 66-cı Baş Assambleyasına təqdim olunacaq məruzə və tövsiyə layihələrinə baxılacaq.

Tədbirdə çıxış edən Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov bildirib ki, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı bu gün regionumuzun səmərəli əməkdaşlıq platformalarından biri hesab edilir. Qurumun Parlament Assambleyası isə xalqlarımız arasında qarşılıqlı etimadın, dialoqun və həmrəyliyin inkişafına ciddi töhfə verir. Təşkilat müxtəlif sahələrdə ortaq problemlərin müzakirəsi və təcrübə mübadiləsi üçün vacib bir tribuna kimi çıxış edir. Vitse-spiker diqqətə çatdırıb ki, bu il iyunun 18-də Milli Məclisin Sədri Sahibə Qafarovanın sədrliyi ilə QDİƏT PA-nin 65-ci Baş Assambleyası Bakı şəhərində uğurla keçirilib. Təşkilatın tarixində ilk dəfə olaraq üç ölkənin - Azərbaycan, Bolqarıstan və Şimali Makedoniyanın parlament sədrləri tədbirdə iştirak ediblər.

O, iclasda müzakirəyə çıxarılan mövzunun vacibliyini və aktuallığını qeyd edərək, süni intellektin sosial xidmətlərin təkmilləşdirilməsi, həssas qruplara dəstək, fərdi təhsil, səhiyyədə diaqnostikanın daha dəqiq inkişafı və effektiv sosial təminat sisteminin formalaşması üçün böyük potensiala malik olduğunu söyləyib.

Ziyafət Əsgərov vurğulayıb ki, Prezident İlham Əliyev əhalinin sosial müdafiəsinin gücləndirilməsini Azərbaycanın qarşısında duran strateji vəzifələrdən biri olaraq müəyyən edib. O qeyd edib ki, dövlətimiz daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir. Bildirilib ki, dövlətimizin başçısının 2018-2025-ci illər ərzində reallaşdırılan 5 sosial islahat paketi çərçivəsində imzaladığı sərəncam və fərmanlar öz əhatə dairəsinə görə inqilabi qərarlar hesab olunur.

Vitse-spiker qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz beynəlxalq hüququn norma və prinsiplərini təkbaşına həyata keçirməklə öz torpaqlarını Ermənistanın 30 illik işğalından azad edərək, ərazi bütövlüyünün və suverenliyinin tam bərpasına nail olub. Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir.

Ziyafət Əsgərov bu il avqustun 8-də Vaşinqtonda ABŞ, Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə sülh müqaviləsinin mətninin paraflandığını, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan tərəfindən Vaşinqtonda keçirilmiş görüşə dair Birgə Bəyannamənin imzalandığını nəzərə çatdırıb və əldə edilmiş razılaşmanın tarixi əhəmiyyətindən bəhs edib.

O, QDİƏT PA-nın Sosial və humanitar siyasət komitəsinin iclası çərçivəsində aparılan müzakirələrin və qəbul olunan qərarların üzv ölkələr arasında əməkdaşlığın daha da güclənməsinə, sosial və humanitar sahədə qarşılıqlı dəstəyin artmasına töhfə verəcəyinə əminliyini ifadə edib.

Sonra tədbirdə QDİƏT PA-nın maliyyə məsələləri üzrə sədr müavini, qurumda nümayəndə heyətimizin rəhbəri Eldar Quliyev çıxış edib. O, hazırda Azərbaycanın sosial-iqtisadi inkişafına görə regionun lider dövlətinə çevrildiyini, dünyada yüksək nüfuza sahib ölkələrdən biri olduğunu vurğulayıb. Azərbaycanda davamlı olaraq bir çox mötəbər beynəlxalq təşkilatın tədbirlərinin keçirildiyini nəzərə çatdıraraq, bu günlərdə Qəbələ şəhərində ölkəmizin Türk Dövlətləri Təşkilatının növbəti sammitinə yüksək səviyyədə evsahibliyini xüsusi qeyd edib. Bununla yanaşı, Gəncə şəhərində III MDB Oyunlarının uğurla təşkil olunduğunu söyləyib.

Eldar Quliyev habelə Azərbaycanın təşəbbüskarı olduğu sülh müqaviləsinin tez bir zamanda imzalanacağına inamını ifadə edərək, dövlətimiz tərəfindən bu istiqamətdə zəruri addımların atıldığını vurğulayıb.

O, hazırda ölkəmizdə davamlı inkişaf, insanların rifahının yüksəldilməsi istiqamətində həyata keçirilən layihələrin önəmindən danışıb, bu sahədə təqdirəlayiq nailiyyətlərin əldə edildiyini söyləyib. Bugünkü iclasın sosial məsələlər sahəsində yeni təşəbbüslərin irəli sürülməsi baxımından əhəmiyyətini qeyd edib.

Daha sonra QDİƏT Parlament Assambleyasının baş katibi Asəf Hacıyev çıxış edərək, Milli Məclisin Sədri Sahibə Qafarovaya bu tədbirin yüksək səviyyədə təşkilinə göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib. O, müzakirəyə çıxarılan mövzunun aktuallığından danışaraq, müasir həyatın ayrılmaz hissəsi olan süni intellektin tətbiq sahələrindən, onun müsbət tərəflərindən və bəzi mənfi təsirlərindən söhbət açıb. Bugünkü iclasın region ölkələrinin dayanıqlı sosial-iqtisadi inkişafı sahəsində süni intellektdən istifadənin təmin edilməsi, bu istiqamətdə təcrübə mübadiləsinin aparılması nöqteyi-nəzərindən vacibliyindən bəhs edib. Baş katib süni intellektin tənzimlənməsində parlamentlərin rolunu xüsusi qeyd edib.

Sonra tədbir iştirakçıları ailə fotosu çəkdiriblər.

❖ ❖ ❖

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Sosial və humanitar siyasət komitəsinin 65-ci iclasının açılış mərasimindən sonra komitə işini gündəlikdəki məsələlərin müzakirəsi ilə davam etdirib.

Komitənin əvvəlki iclaslarının protokolları nəzərdən keçirilərək qəbul olunub. Sonra QDİƏT PA-da nümayəndə heyətimizin üzvü deputat Səbinə Salmanova gündəliyin əsas müzakirə mövzusu olan "QDİƏT regionunda davamlı sosial-iqtisadi inkişaf üçün süni intellekt - sosial aspekt" mövzusu üzrə hesabat layihəsini təqdim edib. Süni intellektin tətbiqi məsələləri, üstünlükləri və riskləri barədə danışan Səbinə Salmanova onun ədalətli və güclü cəmiyyətin qurulmasında, sosial rifahın yüksəldilməsində, eləcə də dayanıqlı inkişaf hədəflərinə çatmaqda oynadığı rolu vurğulayıb.

Eyni mövzu üzrə komitənin tövsiyə qərarının layihəsini komitə sədri Musa Quliyev təqdim edib. O, süni intellektin tətbiqinin etik və hüquqi çərçivəsinin prinsipləri, standartları, bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi və digər məsələlərlə bağlı komitənin üzv ölkələrə tövsiyələrini diqqətə çatdırıb.

Müzakirələrdə komitə üzvləri insanlar üçün süni intellekt imkanlarının əlçatanlığının artırılması yolları və onun yarada biləcəyi potensial riskləri, etik və hüquqi məsələləri, həmçinin insan həyatına və əmək bazarına təsirləri ilə bağlı fikirlərini, qeyd və təkliflərini səsləndiriblər.

Hesabat və tövsiyə layihələrinin qəbulundan sonra komitənin növbəti iclasının tarixi, yeri və gündəliyi müəyyənləşdirilib.

***"Azərbaycan"***

# Gömrük Məsələləri üzrə Üçtərəfli Komitənin iclası



Oktyabrın 7-də Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan hökumətləri arasında Gömrük Məsələləri üzrə Üçtərəfli Komitənin 4-cü iclası keçirilib.

İclasda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov, Türkiyə Respublikası ticarət nazirinin müavini Sezai Uçarmak, Gürcüstan Maliyyə Nazirliyinin Gəlirlər Xidmətinin baş direktoru İrakli Beraianın rəhbərlik etdikləri nümayəndə heyətləri iştirak ediblər.

Tərəflər arasında ticarətin asanlaşdırılması, tranzit imkanlarının artırılması və regional iqtisadi əməkdaşlığın gücləndirilməsi məqsədilə gömrüklə bağlı məsələlərə dair fikir mübadiləsi aparılıb.

İclasda Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin səmərəliliyinin artırılması üçün sərhəd-keçid məntəqələrində rəqəmsallaşmanın genişləndirilməsi, gömrük prosedurlarının və tranzitin sürətləndirilməsi, infrastrukturun təkmilləşdirilməsi ilə bağlı məsələlər müzakirə edilib.



Həmçinin Yeni Kompüterləşdirilmiş Tranzit Sistemi (NCTS), e-TİR prosedurunun tətbiqi, Səlahiyyətli İqtisadi Operatorlar, gömrük hüquqpozmalarına qarşı mübarizə, elektron məlumat mübadiləsi istiqamətində əməkdaşlığın gücləndirilməsinin vacibliyi vurğulanıb.

***DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi***

# Xorvatiya parlamentinin Sədri Azərbaycana rəsmi səfərə gəlib



Xorvatiya parlamentinin Sədri Qordan Yandrokoviçin rəhbərlik etdiyi nümayəndə heyəti oktyabrın 7-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Xorvatiya parlamentinin Sədrini Milli Məclisin Sədr müavini Musa Qasımlı, hər iki ölkənin səfirləri Anar İmanov, Branko Zebiç və digər rəsmi şəxslər qarşılayıblar.

***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları

## Azərbaycan regional sabitlik, enerji təhlükəsizliyi və "yaşıl keçid" istiqamətlərində mərkəzi aktora çevrilib

**Ölkəmizin çoxqütblü xarici siyasətinin əsasında Azərbaycan dövlətinin və xalqının milli mənafelərini əks etdirən, fundamental maraqlarımıza yönələn hərtərəfli əlaqələrin qurulması və inkişaf etdirilməsi konsepsiyası dayanır. Bu xəttin daha bir vacib və ayrılmaz hissəsi Qərb dünyası ilə siyasi və iqtisadi əlaqələri inkişaf etdirməkdir.**



Azərbaycan Avropanın bir neçə dövləti ilə strateji səviyyəyə yüksələn möhkəm əlaqələrə malikdir. Bu dövlətlərin sırasında Avropa İttifaqının təmsilçiləri də var. "Avropa Siyasi Birliyi" bu kimi çoxtərəfli və ikitərəfli əlaqələrin əsasının qoyulması və inkişaf etdirilməsi yönündə olduqca əlverişli və aktiv siyasi platformadır. Bu baxımdan Azərbaycan lideri mütəmadi olaraq bu tədbirlərə dəvət edilir və qitəni narahat edən mövzular ətrafında diskussiyalara qatılır. Belə bir münasibət ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun, onun yüksələn mövqeyinin, başlıcası isə Azərbaycan Prezidentinin dünya liderləri arasında söz sahibi olmasının göstəricisidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Danimarkanın Baş naziri Mette Frederiksenin və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirak etmək üçün bu ölkəyə işgüzar səfəri və səfər çərçivəsində Kopenhagendə keçirdiyi görüşlər son günlərin mühüm siyasi hadisələrindən oldu. Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirakının əhəmiyyəti çoxşaxəlidir və bu, həm geosiyasi, həm də diplomatik-strateji aspektlərdən qiymətləndirilməlidir.

### Yeni Avropa arxitekturası

Öncə bir məqamı xüsusi qeyd edək ki, "Avropa Siyasi Birliyi" (European Political Community - EPC) nisbətən yeni bir təşəbbüsdür. Birlik faktiki olaraq öz fəaliyyətinə 2022-ci ilin oktyabrında Praqada keçirilmiş ilk Zirvə toplantısı ilə başlayıb. Avropa Siyasi Birliyinin yaranmasını şərtləndirən bir neçə mühüm geosiyasi səbəb var. Rusiya-Ukrayna müharibəsi və Avropada təhlükəsizlik böhranı, Avropa İttifaqının genişlənmə məhdudiyyətləri, enerji təhlükəsizliyi və dayanıqlılıq ehtiyacı, yeni Avropa arxitekturası ideyasının irəli sürülməsi bu səbəblərin önündə gedir.

Belə bir platformanın əsas məqsədi Avropada sülh, sabitlik və təhlükəsizlik naminə siyasi dialoqu dərinləşdirmək, Avropa İttifaqına üzv və qeyri-üzv ölkələr arasında enerji, infrastruktur, müdafiə və kibertəhlükəsizlik sahələrində əməkdaşlığı genişləndirmək, Avropanı xüsusilə enerji və müdafiə sahəsində strateji muxtariyyətə yaxınlaşdırmaqdır. Ümumiləşdirsək, "Avropa Siyasi Birliyi" Avropa İttifaqına daxil olmayan, amma Avropa məkanında mühüm rol oynayan ölkələri bir araya gətirən platformadır.

Dövlətimizin başçısının bu qurumun 7-ci Zirvə toplantısında məhz qarşı tərəfin dəvəti və xahişi ilə iştirakı ölkəmizin müasir Avropa qitəsindəki yeri və rolu, yeni dünya düzənindəki mövqeyinin əhəmiyyəti haqqında aydın mənzərə yaradır, Avropa siyasi məkanında nə qədər fəal və etibarlı tərəfdaş kimi çıxış etdiyini göstərir. Bu, Azərbaycan-Avropa İttifaqı münasibətlərinin yalnız enerji sektorunda deyil, siyasi və təhlükəsizlik müstəvisində də inkişaf etməsinin nümayişidir. Həmçinin enerji təhlükəsizliyi və strateji infrastrukturda Azərbaycanın lider rolunun növbəti dəfə təsdiqidir.

Avropada enerji böhranı və "yaşıl enerji"yə keçid kontekstində ölkəmiz etibarlı enerji təchizatçısı kimi çıxış edir. "Avropa Siyasi Birliyi"nin zirvə toplantısı kimi platformalar Azərbaycan Prezidentinə "Cənub qaz dəhlizi", "yaşıl enerji" ixracı, Xəzər-Qara dəniz-Avropa enerji xətti kimi son dərəcə əhəmiyyətli qlobal layihələr barədə mövqeyini birbaşa liderlər səviyyəsində ifadə etmək imkanı yaradır, Azərbaycanın strateji enerji xəritəsində mərkəzi iştirakçı statusunu daha da möhkəmləndirir.

### Regional təhlükəsizlik və sülh təşəbbüslərinin mərkəzində

Zirvə toplantısında iştirak regional təhlükəsizlik və sülh təşəbbüslərinin təqdimatı baxımından da faydalı oldu. Məlumdur ki, Azərbaycanla Ermənistan arasında sülh prosesi, Cənubi Qafqazda yeni reallıqlar Avropa üçün də prioritet mövzudur. Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirakı Azərbaycanın sülh gündəliyini və konstruktiv diplomatik mövqeyini Avropa ictimaiyyətinə və liderlərinə bir daha çatdırmaq baxımından vacib əhəmiyyət daşıyır. Bu, həm də ölkəmizin münaqişənin həllindən sonra Qarabağda, Şərqi Zəngəzurda apardığı genişmiqyaslı quruculuq və reinteqrasiya modelini beynəlxalq auditoriyaya təqdim etmək imkanıdır.

Prezident İlham Əliyevin Kopenhagen səfərini, "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısı çərçivəsində ayrı-ayrı ölkələrin dövlət və hökumət başçıları ilə keçirdiyi görüşləri rəsmi Bakının qlobal balans siyasətinin nümayişi kimi də nəzərdən keçirmək olar. Belə ki, Azərbaycan balanslaşdırılmış xarici siyasət yürüdərək bir tərəfdən Türk Dövlətləri Təşkilatı və Qoşulmama Hərəkatı ilə fəal əməkdaşlıq edir, bu təsisatların inkişafında, qlobal gücə çevrilməsində fəal rol oynayır, digər tərəfdən Avropa ölkələrini bir araya gətirən platformalarla strateji tərəfdaşlıq xətti yürüdür. Bu baxımdan "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirak müvafiq siyasətin "müstəqil, çoxtərəfli və çevik diplomatiya" prinsiplərinin praktiki təzahürüdür. Azərbaycan göstərir ki, o, nə bir blokun, nə də hansısa güc mərkəzinin tərkib hissəsidir - öz milli maraqları əsasında qlobal tərəfdaşdır.

Azərbaycanın bu siyasi kursunun hörmətlə qarşılanması, ölkəmizin mövqeyinə, belə platformalarda iştirakına xüsusi önəm verilməsi cənab İlham Əliyevin Avropa məkanındakı yüksək nüfuzunun, müasir dünyamızın ən parlaq liderlərindən biri kimi şəxsiyyətinə göstərilən böyük rəğbətin, eləcə də ölkəmizin müsbət imicinin, ona verilən xüsusi dəyərin və olduqca pozitiv münasibətin göstəricisidir.

2024-cü ildə COP29 kimi möhtəşəm qlobal tədbirin Bakıda keçirilməsi fonunda Azərbaycan Prezidentinin "Avropa Siyasi Birliyi" Zirvə toplantısında iştirakı ölkəmizin iqlim diplomatiyasındakı lider rolunu da təsdiqləmiş oldu. Bu təsisat, Avropa liderləri ilə "yaşıl enerji" keçidi, bərpaolunan mənbələr və karbon neytrallığı üzrə konkret əməkdaşlıq təşəbbüslərini və s. müzakirə etmək üçün ideal platformadır.

"Avropa Siyasi Birliyi" kimi platformalarda Prezident İlham Əliyevin fəal iştirakı Azərbaycanın qlobal arenada artan nüfuzunun, həm də reallıqlara əsaslanan diplomatiyasının göstəricisidir. Bu, Azərbaycanın yalnız regional deyil, Avropa təhlükəsizlik və enerji gündəliyinə təsir edən ölkə statusunu bir daha təsdiq edir. Nəticə etibarilə bu tədbirdə iştirak Azərbaycanın Avropa ilə siyasi, iqtisadi və enerji tərəfdaşlığını daha da dərinləşdirmiş oldu, Cənubi Qafqazda sülh və sabitliyin təminatında ölkəmizin lider mövqeyini bir daha nümayiş etdirdi, qlobal enerji və iqlim siyasətində onun aparıcı rolunu növbəti dəfə sərgilədi.

### Qarşı tərəflərin xahişi ilə keçirilən görüşlər

Kopenhagen səfərinin ən faydalı nəticələrindən biri də Azərbaycan Prezidentinin Fransa Prezidenti Emmanuel Makron, Niderland Krallığının Baş naziri Dik Sxof, Ukrayna Prezidenti Volodimir Zelenski, İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni, Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen, Ermənistanın Baş naziri Nikol Paşinyan, Moldova Respublikasının Prezidenti Maya Sandu ilə keçirdiyi görüşlər oldu. Görüşlərin hər biri qarşı tərəfin müraciətləri əsasında baş tutdu. Bunun özü də Azərbaycan Prezidenti ilə ünsiyyət və müzakirələrə qlobal marağın göstəricisi sayıla bilər.

Dövlətimizin başçısının fərqli siyasi məkanlara daxil olan Avropa liderləri ilə görüşməsi ölkəmizin balanslaşdırılmış, çoxvektorlu xarici siyasətinin bariz təzahürüdür. Bu görüşlər vasitəsilə Azərbaycan həm enerji və nəqliyyat əməkdaşlığı, həm də regional sülh prosesi və Avropa ilə strateji dialoq istiqamətində konkret irəliləyişlərə nail oldu. Görüşlərin çoxluğu və səviyyəsi göstərir ki, Azərbaycan artıq təkcə regional deyil, ümumavropa siyasi gündəliyinin formalaşmasında mühüm tərəfdaş kimi qəbul edilir. Bu baxımdan, Fransa Prezidenti Emmanuel Makronun xahişi ilə keçirilən görüş Cənubi Qafqazda sülh prosesi fonunda tərəflər arasında vaxtilə yaranmış gərgin diplomatik fonu yumşaltmaq baxımından əhəmiyyətli idi. Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə Vaşinqtonda əldə olunmuş nəticələrin regional sülh gündəliyinin irəli aparılması üçün tarixi əhəmiyyət kəsb etdiyini vurğuladı. Dövlətimizin başçısı hazırda sülh gündəliyinin irəliyə aparılması üçün müxtəlif istiqamətlər üzrə qarşılıqlı fəaliyyətin həyata keçirildiyini qeyd etdi. Bu görüş məsələlərə obyektiv və reallıqlara əsaslanan yanaşmanın vacibliyini Fransa rəhbərliyinin diqqətinə birbaşa çatdırmış oldu.

Niderland Krallığının Baş naziri Dik Sxofla görüş isə enerji əməkdaşlığı və "yaşıl enerji" layihələri baxımından xüsusi əhəmiyyət daşıyır. Məlumdur ki, Niderland Avropada bərpaolunan enerji texnologiyalarının liderlərindən biridir və Azərbaycan üçün bu əlaqələrin daha da möhkəmləndirilməsi "yaşıl diplomatiya" sahəsində strateji tərəfdaşlıq imkanlarını genişləndirir. Bundan əlavə, liman-logistika sahəsində Niderland təcrübəsi Azərbaycanın Zəngəzur dəhlizi (TRIPP) və Orta dəhliz layihələri üçün mühüm maraq doğurur.

Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüş isə postmüharibə reallıqları, ölkələrin ərazi bütövlüyü və beynəlxalq hüquq prinsipləri kontekstində mühüm simvolik məna daşıyırdı. Azərbaycan bu görüşlə Ukraynanın suverenliyini, ərazi bütövlüyünü dəstəklədiyini bir daha təsdiqləməklə yanaşı, BMT Nizamnaməsinə əsaslanan beynəlxalq normalara sadiqliyini də nümayiş etdirmiş oldu. Həmçinin enerji və humanitar sahədə əməkdaşlığın dərinləşdirilməsi istiqamətində fikir mübadiləsi aparıldı.

İtaliya Nazirlər Şurasının sədri Ciorgia Meloni ilə görüşə gəlincə, məlumdur ki, İtaliya Azərbaycanın Avropadakı ən yaxın strateji tərəfdaşlarından biridir. Söhbət zamanı Azərbaycanla İtaliya arasında münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq müstəvisində inkişaf etdiyi bildirildi və bu xüsusda bir neçə gün əvvəl İtaliya Prezidentinin Azərbaycana uğurlu rəsmi səfəri, səfər çərçivəsində Bakıda İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılışı qeyd olundu. Söhbət zamanı Azərbaycan ilə İtaliyanın enerji sahəsində uğurlu əməkdaşlığına toxunuldu, ölkəmizin İtaliyanın enerji təhlükəsizliyinə töhfəsi vurğulandı. Ölkələrimiz arasında investisiyalar, mədəniyyət, humanitar və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu. Bu görüş, aparılan müzakirələr eyni zamanda Azərbaycan-İtaliya strateji tərəfdaşlığının Avropa miqyasında nümunə kimi təqdim olunmasına xidmət etmiş oldu.

Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen ilə görüşlər də Azərbaycan-Avropa İttifaqı münasibətlərinin yüksək səviyyədə, strateji formatda davam etdiyini göstərdi. Müzakirələrdə enerji təhlükəsizliyi, iqlim gündəliyi, Cənubi Qafqazda sülh prosesi əsas prioritet mövzular oldu. Ursula fon der Lyayen ilə görüş həm də Azərbaycanın Avropanın enerji sabitliyində rolunu bir daha nümayiş etdirdi. Dövlətimizin başçısı Azərbaycanın Orta dəhlizin inkişafında oynadığı rolu qeyd edərək, ölkəmizdə nəqliyyat-logistika infrastrukturunun inkişaf etdirilməsi istiqamətində görülən işlərdən danışdı və hazırda Mərkəzi Asiyadan Azərbaycan ərazisindən nəqliyyat daşımalarının həcminin artdığını bildirdi. Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin inkişaf etdirilməsi və yeni səviyyəyə qaldırılması üçün yaxşı imkanların olduğu da vurğulandı.

Ermənistanın Baş naziri Nikol Paşinyanla görüş isə iki ölkə arasında sülh müqaviləsi şərtlərinin yekunlaşdırılması istiqamətində ən vacib siyasi təmaslardan biri kimi dəyərləndirilə bilər. Belə bir görüş Azərbaycanın sülh təşəbbüslərinin ardıcıl, konstruktiv və nəticəyönümlü olduğunu göstərir. Görüş həm də regionda yeni etimad mühitinin formalaşması baxımından mühümdür.

Cənab İlham Əliyevin Moldovanın bu vəzifəyə növbəti dəfə yeni seçilmiş Prezidenti Maya Sandu ilə görüşü də böyük əhəmiyyət daşıyır. Moldova Azərbaycanla həm enerji, həm də rəqəmsal iqtisadiyyat və kənd təsərrüfatı sahələrində əməkdaşlıq potensialına malikdir. Görüş həmçinin Azərbaycan və Moldova kimi ölkələrin iqlim diplomatiyasında birgə səylərinin müzakirəsi baxımından önəmlidir.

Kopenhagen səfəri və görüşləri göstərdi ki, Azərbaycan Prezidenti İlham Əliyev diplomatiyası ilə enerji, sülh və Avropa ilə inteqrasiya gündəmini eyni anda irəlilətməyi bacarır. Azərbaycan "Avropa Siyasi Birliyi"ndə regional sabitlik, enerji təhlükəsizliyi və "yaşıl keçid" istiqamətlərində mərkəzi aktora çevrilib və ölkəmizə olan etimad kapitalı zaman keçdikcə daha da güclənərək dayanıqlı xarakter daşıyır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## "Azərbaycanın Aİ ilə əməkdaşlığında yeni və daha məhsuldar mərhələ başlayıb"

**Prezident İlham Əliyev Kopenhagendə "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısında ən fəal iştirakçılardan biri oldu. Dövlətimizin başçısı yenə sammit çərçivəsində bir çox dövlət, hökumət başçısı, həmçinin Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti və Aİ Komissiyasının Prezidenti ilə ikitərəfli görüşlər keçirdi. Qarşı tərəflərin müraciətləri əsasında keçirilən həmin görüşlər Avropa liderlərinin Azərbaycana olan marağının, Prezident İlham Əliyevin şəxsi nüfuzuna, yürütdüyü siyasətə etimadın və ehtiramın bariz nümunəsi idi.**

Azərbaycanın Avropa İttifaqı ilə bərabərhüquqlu tərəfdaş olduğunu xatırladan Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, sıx iqtisadi və ticarət əlaqələri gündəliyinə regional bağlantıların gücləndirilməsi məsələsi də daxil olub: "Zəngəzur dəhlizinin (TRIPP ) açılması ilə Asiyanı Avropa ilə birləşdirən daha bir strateji nəqliyyat dəhlizi öz işinə başlayacaq. Bu yol yeni reallıqlar kontekstində Çin və hazırda Avropa İttifaqının investisiyalarını artırdığı Mərkəzi Asiyanı Aİ ölkələri ilə birləşdirəcək. Dəhlizdən daşınacaq yüklərin həcminin artırılması üçün imkanların nəzərdən keçirilməsi Aİ-nin marağındadır. Ölkəmizlə enerji, ticarət, bağlantılar üzrə məhsuldar tərəfdaşlığı davam edən Avropa İttifaqı üçün Azərbaycan hər sahədə etibarlı tərəfdaşdır. Avropanın enerji təhlükəsizliyinə böyük töhfə verən Azərbaycanın ən böyük ticarət tərəfdaşı da Avropa İttifaqı ölkələridir".



P.Vəliyeva avqustun 8-də Vaşinqtonda ABŞ Prezidentinin vasitəçiliyi ilə keçirilən sülh danışıqlarında əldə olunan tarixi razılaşmanın yeni bir mərhələnin əsasını qoyduğunu vurğulayaraq əlavə edib ki, Prezident İlham Əliyevin Vaşinqton səfəri və imzalanan birgə sənədlər bir çox qüvvələrin, erməni diasporunun və lobbi dairələrinin iflası demək idi: "Sülh müqaviləsində əks olunan bəndlər artıq regionda üçüncü dövlətin hər hansı missiyasının fəaliyyətini mümkünsüz edir, bölgəyə müdaxilə cəhdlərinə qapını bağlayır. Bu reallığı dərk edən bəzi Avropa liderləri artıq anlayıblar ki, Prezident İlham Əliyevin yaratdığı sülh mühitini qəbul edib münasibətləri normallaşdırmaqdan başqa yol yoxdur. Zirvə toplantısı çərçivəsində Prezident İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş baş tutdu. Bu, tarixi Vaşinqton Sülh Sammitindən sonra iki ölkə rəhbəri arasında keçirilən ikinci görüş idi. Bundan öncə Çində ŞƏT+ formatında keçirilən sammitdə tərəflər bir araya gəlmişdi. Sülh prosesi ərəfəsində bu cür görüşlərin keçirilməsi sülhün öz praktiki nəticələrini göstərdiyinin daha bir nümunəsidir".

Etimad-quruculuq tədbirləri çərçivəsində artıq tərəflərin bir neçə addım atdığını deyən P.Vəliyeva söyləyib ki, sülh müqaviləsinin imzalanması üçün Ermənistan ilk növbədə öz üzərinə düşən öhdəliyi yerinə yetirməlidir: "Bu ölkə öz konstitusiyasında və müstəqillik aktında Azərbaycana qarşı ərazi iddialarını çıxarmalıdır. Bunun üçün tərəflərin razılaşması mövcuddur. "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısı tərəflərin sülh prosesinin gedişi, Ermənistan tərəfindən sözügedən dəyişikliyin edilməsinin və Vaşinqton görüşünün nəticələrinin (TRIPP) xatırladılması, eləcə də Zəngəzur dəhlizinin açılması ilə bağlı görülən işlərin müzakirəsi üçün fürsət oldu. Nəticə etibarilə Azərbaycanın müstəqil, balanslaşdırılmış və çoxvektorlu xarici siyasətinə göstərilən etimad, eləcə də dövlət başçısının şəxsi nüfuzuna olan yüksək hörmət "Avropa Siyasi Birliyi" Zirvə toplantısında bir daha aydın şəkildə öz təsdiqini tapdı. Proqnozlaşdırmaq olar ki, Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığında yeni və daha məhsuldar mərhələ başlayıb və perspektivlərin yaxın gələcəkdə reallaşmasını gözləmək olar".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları



# Dostluq görüşü

**Bir zamanlar yalnız arzularımızda yer alan türk dünyasının birliyi artıq bu günümüzün qürurverici gerçəkliyidir. Türk dövlətlərini təkcə aralarında olan siyasi, iqtisadi, mədəni əlaqələr birləşdirmir. Ortaq tarixi köklərə, dilə, mədəniyyətə malik olan bu ölkələr hazırda bütün beynəlxalq platformalarda bir-birilərinin mənafelərini müdafiə edən, baş verən kataklizmlərə, təbii fəlakətlərə qarşı birgə mübarizə aparan vahid güc kimi çıxış edirlər. Yeni türk tarixində qazanılan parlaq qələbə kimi salnamələrə qızıl hərflərlə həkk edilən Qarabağ zəfərinin bu birliyin daha da güclənməsi üçün parlaq üfüqlər açması da reallıqdır. Buna görədir ki, türkdilli xalqların hər bir üzvü bu zəfərdən şərəf duyur.**

Türk dövlətlərinə rəhbərlik edən liderlərin arasında olan qardaşlıq və dostluq münasibətləri isə gün keçdikcə daha da möhkəmlənən türk birliyinin təməl səbəblərindən biridir. Bütün dünya bu qardaşlıq və dostluğa dayanan münasibətlərdən qaynaqlanan türk birliyinin növbəti möhtəşəm təntənəsinə Azərbaycanın tarixi şəhəri Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının XII Zirvə görüşündə, sözün əsl mənasında, dostluq görüşündə, bir daha şahidlik etdi. Toplantıdan əvvəl türkdilli dövlətlərin rəhbərləri ilə Prezident İlham Əliyevin səmimi görüşləri də bunun növbəti təsdiqi oldu.

## "Dost görmək həmişə xoşdur!"

Türk dünyasının birliyi istiqamətində mühüm təşəbbüslər irəli sürən, əməli işlər həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevin türkdilli ölkələrin rəhbərləri ilə olan qardaşlıq və dostluq münasibətləri hər zaman diqqət çəkir. Sözü imzası qədər kəsərli olan cənab İlham Əliyevin qətiyyətli və bütöv xarakteri Onun həm də etibarlı və güvənilən dost adı qazanmasının səbəbidir. Buna görədir ki, ölkəmizdə keçirilən XII Zirvə görüşü həm də dostluq görüşü kimi xatirələrdə yaddaqalan iz buraxdı. Bu mənada Qəbələ Zirvə toplantısından öncə - oktyabrın 6-da Prezident İlham Əliyevlə görüşən Macarıstanın Baş naziri Viktor Orbanın görüş barədə təəssüratlarını "X" hesabında paylaşaraq, "Dost görmək həmişə xoşdur!" deməsi təsadüfi xarakter daşımırdı.

Prezident İlham Əliyevlə Viktor Orban arasında olan dostluq münasibətləri ölkələrimiz arasındakı əlaqələrin inkişafına birbaşa təkan verir. O cümlədən Macarıstanın hər zaman Azərbaycanın haqq işini dəstəkləməsi, ölkəmizin bu dövlətin enerji təhlükəsizliyində oynadığı rol da xüsusi vurğulanmalıdır.

2023-cü ilin yanvarında Budapeştdə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə Macarıstanın Baş naziri Viktor Orban və xanımı Aniko Levai tərəfindən rəsmi nahar verilən zaman V.Orbanın Azərbaycan Prezidenti haqqında dediyi fikirləri də hər kəs tərəfindən maraqla qarşılanmışdı: "Mən son on ildə Prezident Əliyevdən o qədər çox şey öyrənmişəm ki, olduqca mürəkkəb mühitdə ölkəyə necə yaxşı rəhbərlik etmək lazımdır. Əfsuslar olsun ki, onun bütün bildiklərini öyrənə bilmədim. Çünki biz radikal tərəfə meyilliyik və o, daha mülayim baxışları ilə tanınan siyasi xadimdir. Mən ondan beynəlxalq arenada mülayim şəkildə necə daha da uğurlu olmağı öyrənməliyəm".

## "İlham Heydər oğlu bizə başqa cür yanaşır və biz bütün bunları qiymətləndiririk"

Dövlətimizin rəhbəri İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevlə, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə, Qırğızıstan Prezidenti Sadır Japarovla, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovla qardaşlıq və dostluğa əsaslanan yüksəksəviyyəli münasibətləri var. Bunu prezidentlər arasında keçirilən görüşlərdən, telefon zənglərindən, eləcə də bir-birilərinə əlamətdar günlərdə ünvanladıqları təbrik məktublarından da aydın hiss etmək olur.

Bu il mayın 26-da Müstəqillik Günü ilə əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizin rəhbəri İlham Əliyevə, "Hörmətli cənab Prezident, əziz Qardaşım", deyə xitabən başlayan təbrik məktubunda deyilir ki, qardaşlıq əlaqələrimizin və bənzərsiz əməkdaşlığımızın bizi ortaq inkişaf hədəflərimizə gündən-günə daha çox yaxınlaşdırdığını, ölkələrimizi daha da güclü və firavan etdiyini məmnuniyyətlə müşahidə edirəm.

Cari il iyulun 2-də Prezident İlham Əliyevlə birgə mətbuata bəyanatlarla çıxış edən zaman Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin dilə gətirdiyi fikirlər də Azərbaycana, ölkəmizin rəhbərinə olan yüksək ehtiramdan xəbər verir: "...İlk dəqiqələrdən etibarən həm mən, həm də nümayəndə heyətimizin üzvləri çox isti münasibəti hiss edirik. Biz qardaşlarımızın yanına gəlmişik və bu gün burada hər şey öz evimizdəki kimidir. Ölkə inkişaf edir, böyük dəyişikliklər müşahidə edirəm. Əziz qardaşlar, dostlar və çox yaxın xalqlar olaraq biz Özbəkistanda Azərbaycanın uğurlarına ürəkdən sevinirik...

... Əziz qardaşım İlham Heydər oğluna belə məzmunlu, dostcasına və qarşılıqlı faydalı əməkdaşlığa görə təşəkkürümü bildirirəm. İlham Heydər oğlu bizə başqa cür yanaşır və biz bütün bunları qiymətləndiririk. Özbəkistan və Özbəkistan Prezidenti də eyni münasibət bəsləyir. Bizim yaxşı nəticələrimiz var. Mən əminəm ki, gələcək üçün yaxşı perspektivlərimiz olacaq.

Qardaş dövlətlərin Azərbaycanın qayıdış zəfəri üçün Qarabağ və Şərqi Zəngəzurda apardığı quruculuq işlərinə töhfələr verməsi də xoş münasibətlərin təzahürüdür. Bu dövlətlərin dəstəyi ilə işğaldan azad edilən ərazilərimizdə məktəblər, yaradıcılıq mərkəzləri inşa olunub, yeni təhsil və mədəniyyət ocaqları yaradılıb. Ölkəmizin lideri İlham Əliyev TDT-nin Bişkek Zirvəsində bu töhfələrə görə təşəkkürünü bu sözlərlə ifadə edib: "Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Macarıstanın dövlət və hökumət başçılarına azad olunmuş ərazilərdə qardaşlıq hədiyyəsi olan məktəbə və yaradıcılıq mərkəzinə, eləcə də tikiləcək məktəblərə görə bir daha təşəkkürümü bildirmək istərdim..."

## Hər zaman bir-birinin yanında olan qardaşlar

Ötən il fevralın 14-də keçirilən andiçmə mərasimində "Bizim ailəmiz türk dünyasıdır", - deyə vurğulayan Prezident İlham Əliyev qeyd etdi ki, bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır: "Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

Türk birliyinin, həmrəyliyinin daha da güclənməsi üçün Azərbaycan dövləti mühüm işlər görür, Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərin mənafelərini hər zaman müdafiə edir, o cümlədən Şimali Kipr Türk Cümhuriyyətinin haqq işinə öz dəstəyini verir. 7 sentyabr 2023-cü ildə TDT-nin üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci görüşünün və "Bakı- 2023" beynəlxalq təliminin iştirakçılarını qəbul edən zaman vurğulamışdı ki, Şimali Kiprin bayrağı da bizim tədbirdə dalğalanmalıdır və dalğalanacaqdır.

Dövlətimizin rəhbəri onu da qeyd etmişdi ki, Azərbaycan bütün türk dünyasında birləşən qardaşlarımızın hər zaman yanında olubdur və çox sevindirici haldır ki, son Zirvə görüşündə Şimali Kipr Türk Dövlətləri Təşkilatına müşahidəçi seçilmişdir: "Bu, bir daha bizim birliyimizi göstərir, bir daha iradəmizi göstərir. Onu göstərir ki, biz haqq yolunda hər zaman bir-birimizin yanındayıq və yanında olacağıq".

Türk Dövlətləri Təşkilatı Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən XII Zirvə toplantısı öncəsi Prezident İlham Əliyevin Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar ilə görüşü zamanı da bu məqam xüsusi vurğulandı. Ersin Tatar Prezident İlham Əliyevlə ölkəmizdə və beynəlxalq tədbirlər çərçivəsində görüşlərini, həmçinin Şuşada TDT-nin Dövlət başçılarının qeyri-rəsmi Zirvə toplantısında iştirakını məmnunluqla xatırladı, Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı ölkəmiz tərəfindən Şimali Kipr Türk Cümhuriyyətinə dəstəyin bundan sonra da davam etdiriləcəyini dedi.

7 oktyabr tarixində Prezident İlham Əliyev Qəbələdə Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşdü. Bu görüş zamanı da qardaşlıq, mehriban qonşuluq və əməkdaşlıq prinsiplərinə əsaslanan Azərbaycan-Türkmənistan dövlətlərarası əlaqələrinin hazırkı səviyyəsi yüksək qiymətləndirildi, xalqlarımızı dərin qardaşlıq ənənələrinin birləşdirdiyi qeyd olundu.

Bu nümunələrdən də aydın olduğu kimi, türkdilli ölkələrin rəhbərlərinin "böyük türk dünyası ailəsi"nin həmrəyliyinin, birliyinin daha da gücləndirilməsi üçün şəxsi səylər göstərən Prezident İlham Əliyevə hörmət və ehtiramları böyükdür. Buna görədir ki, liderlər cənab İlham Əliyevin timsalında əziz qardaşa və dosta malik olduqlarını hər zaman fəxrlə dilə gətirirlər.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Naxçıvandan başlanan 16 illik möhtəşəm yol

## Türk Dövlətləri Təşkilatı beynəlxalq birliyin yeni güc mərkəzi kimi qəbul edilir

Dostluq, qardaşlıq münasibətləri getdikcə daha da güclənən, mövcud əməkdaşlıqları gündən-günə şaxələnən türkdilli dövlətlərin mövcud əlaqələri yeni yüksəliş mərhələsinə qədəm qoyub.

Prezident İlham Əliyev hələ illər öncə türkdilli ölkələrin arasında olan tarixi bağları, isti və qardaşlıq münasibətlərini dəyərləndirərkən bildirmişdir ki, türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malikdir: "Türk dünyası böyük bir ailədir. Bir-birimizin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq".

Bu il oktyabrın 3-də İlham Əliyev rəsmi sosial şəbəkə səhifələrində 3 oktyabr - Türk Dövlətlərinin Əməkdaşlıq Günü ilə bağlı paylaşım edərək bildirmişdir ki, məhz bu gün 2009-cu ildə qədim Azərbaycan torpağı olan Naxçıvanda Türk Dövlətləri Təşkilatının əsası qoyulub: "Bu əlamətdar gün münasibətilə türk dünyasını səmimi-qəlbdən təbrik edirəm. Türk dünyası bizim ailəmizdir! Ötən 16 il ərzində təşkilatımız güclənmiş, dünya miqyasında böyük nüfuz qazanmış, sıralarımız genişlənmişdir. Türk Dövlətləri Təşkilatı ölkələrimiz arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın gücləndirilməsinə, türk xalqları arasında həmrəyliyin daha da möhkəmlənməsinə böyük töhfə vermişdir".

Ümumiyyətlə, Türk Dövlətləri Təşkilatı (əvvəlki adı - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası. red.) türkdilli ölkələrin dövlət başçılarının 2009-cu il oktyabrın 3-də Naxçıvanda keçirilən Zirvə görüşündə imzalanmış "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması" haqqında sazişə əsasən təsis edilib. 2022-ci ilə qədər Türk Şurası adıandırılan türk Dövlətləri Təşkilatı (TDT) son 16 ildə böyük inkişaf yolu keçib. İllər öncə imzalanmış sazişə əsasən şuranın məqsədi türk dövlətləri arasında qarşılıqlı dostluğun möhkəmləndirilməsi, regionda və ümumilikdə dünyada sülhün qorunması, siyasi, ticari-iqtisadi, hüquq-mühafizə, təbiətin mühafizəsi, mədəni, elmi-texniki, hərbi-texniki, təhsil, enerji, nəqliyyat və ümumi maraq kəsb edən digər sahələrdə səmərəli regional və ikitərəfli əməkdaşlığın edilməsi, bütün sahələrdə qarşılıqlı əlaqənin və ölkələr arasında təmasların təşviqi və sairdir.

Bu dövrdə üzv dövlətlər şuranın məqsəd və prinsiplərinə uyğun olaraq əməkdaşlığın yeni formatlarını qurublar. Belə ki, Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRK PA), Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatası və Türk Biznes Şurası kimi qurumların yaradılması nəticəsində TDT çərçivəsində üzv ölkələr arasında əlaqələr sürətlə genişlənib.

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsini Azərbaycanın xarici siyasətinin prioritetlərindən biri olduğunu bəyan edib. Xüsusilə vurğulanmalıdır ki, türk dünyasının potensialını vahid səy istiqamətində ilk dəfə məhz İlham Əliyev birləşdirib və qlobal pandemiya ilə mübarizədə bu birlik formulu çox səmərəli mexanizmə çevirmişdi. Təşkilat yaranarkən qarşıya qoyulan, habelə yeni geosiyasi reallıq fonunda transformasiya keçirən hədəflər aydın və kifayət qədər sağlamdır.

Ortaq dil, tarix və ənənələrə söykənən, Naxçıvan müqaviləsi ilə təməli qoyulan təşkilatımız çərçivəsində siyasi, iqtisadi və mədəni istiqamətlər daxilində 35-dən çox sahədə əməkdaşlıq inkişaf edib.

Oktyabrın 6-7-də Türk Dövlətləri Təşkilatının XII Zirvə Görüşü qədim Azərbaycan şəhəri olan Qəbələdə təşkil olundu. Tədbirə təşkilata üzv ölkələrin liderləri ilə yanaşı, müşahidəçi ölkələr, Macarıstan və Şimali Kipr də qatıldı.

Zirvə görüşündən öncə Qəbələdə TDT-nin Xarici İşlər Nazirləri Şurasının toplantısında xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, beynəlxalq qurumlara inamın sarsıldığı dövrdə TDT arasında qardaşlıq və qarşılıqlı etimad əsasında qurulan əməkdaşlıq əlaqələrinin dinamikası hamımız üçün təkcə qürur mənbəyi deyil, gələcəyə ümidlə baxmağa möhkəm əsasdır: "Bu gün təşkilatımızın daha da gücləndirilməsi üçün üzv dövlətlərin təkliflərini dinləyəcəyik. Prezident İlham Əliyevin təşəbbüsü ilə TDT-nin illik Zirvə görüşlərinin sayının 2-yə çatdırılması əməkdaşlıq imkanlarımızın çevik, dərin və ətraflı müzakirəsi üçün fürsət yaradıb".

Azərbaycanın tarixi diyarı olan Qəbələnin bu mötəbər tədbirə evsahibliyi etdiyinə görə Prezident İlham Əliyevə səmimi təşəkkürünü bildirən Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Prezidenti Ersin Tatar qeyd edib ki, biz hamımız eyni tarixin, eyni dastanların və eyni mədəni irsin sahibləriyik. Bu ortaq köklər bizi bir-birimizə bağlayan ən güclü mənəvi dəyərlərdir. Bu görüşün Qarabağ Zəfərinin 5-ci ildönümünə təsadüf etməsi xüsusilə qürurverici hadisədir. "Bu Zəfər ədalətin bərpası, xalqın və liderinin birliyinin təntənəsidir. Qarabağ Zəfəri bütün türk dünyasına bir daha göstərdi ki, biz birlikdə olduqda hər bir çətinliyin öhdəsindən gələ bilərik. Bu Zəfər həm də türk dünyasının sarsılmaz həmrəyliyinin və qardaşlığının rəmzidir. Şimali Kipr Türk Cümhuriyyəti hər zaman Azərbaycanın yanında olacaq. Biz inanırıq ki, ortaq tariximiz və mənəvi bağlarımız üzərində qurulan əməkdaşlıq bu gün strateji tərəfdaşlığa və ortaq gələcəyə çevriləcək. Əminəm ki, birliyimiz və qarşılıqlı etimadımız gələcəkdə də regionda sülhün, sabitliyin və rifahın təminatçısı olacaq".

Əminliklə deyə bilərik ki, Azərbaycan TDT-nin ən fəal və strateji cəhətdən əhəmiyyətli üzvü olaraq həm təşkilatın yaradılmasında, həm də onun inkişafında aparıcı rol oynayıb.

Prezident İlham Əliyevin "Bizim üçün TDT əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır" fikirləri Azərbaycanın bu birliyə verdiyi mənəvi və strateji dəyərin ən bariz ifadəsidir.

Təşkilatın digər üzvləri də təsdiq edirlər ki, Azərbaycan bu birlikdə lokomotiv funksiyasını yerinə yetirir. Ölkəmiz təşkilat çərçivəsində siyasi təşəbbüslərlə çıxış edir, yeni əməkdaşlıq sahələri yaradır və ortaq layihələrin maliyyələşdirilməsində, idarə olunmasında fəal iştirak edir.

İlham Əliyevin təşəbbüsləri TDT-nin inkişaf strategiyasının əsas istiqamətlərini müəyyənləşdirib. Məhz bu təşəbbüslər nəticəsində TDT formal birlikdən real təsir gücünə malik beynəlxalq güc mərkəzinə çevrilib.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan Türk Dövlətləri Təşkilatının uzunmüddətli gündəliyini formalaşdırır

Ötən gün Azərbaycanın Qəbələ şəhərində Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Toplantısı keçirildi. Gündəlikdə nəqliyyat və logistika, ticarət, iqtisadiyyat, rəqəmsal transformasiya, texnologiyalar, təhlükəsizlik kimi sahələrdə əməkdaşlığın inkişafı məsələləri yer alıb.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi Roza Bayramlı "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Şuşada keçirilən qeyri-rəsmi zirvə toplantısı zamanı qəbul olunmuş Qarabağ Bəyannaməsində logistikanın möhkəmləndirilməsi, dayanıqlı inkişaf və iqlim gündəliyinin önə çəkilməsi vurğulanmışdı. Budapeştdə keçirilən analoji görüşdə də nəqliyyat və logistika sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyi qeyd olunmuşdu. "Qəbələdəki zirvə görüşündə də nəqliyyat məsələləri əsas müzakirə mövzularından biridir. Prezident İlham Əliyev "Əl-Ərəbiyyə" telekanalına verdiyi müsahibədə bildirmişdi ki, sözügedən sammit çərçivəsində nəqliyyat inteqrasiyası, gömrük prosedurlarının unifikasiyası və "yaşıl enerji" sahəsində maliyyələşmənin inkişafı üzrə istiqamətlər müəyyən olunacaq", - deyə o əlavə edib.

BMTM əməkdaşı bildirib ki, bundan əlavə, sammit zamanı Azərbaycanın təşkilatın inkişafında strateji rolu və Zəngəzur dəhlizinin (TRIPP) reallaşdırılması istiqamətində müzakirələr aparılıb. Nəqliyyat əməkdaşlığının inkişafı kontekstində multimodal dəhliz layihələrinin inkişafı, tranzit maneələrinin azaldılması və "sadələşdirilmiş gömrük dəhlizlərinin" yaradılması kimi məsələlər də gündəmdə yer alıb. İqtisadi əməkdaşlığın inkişafı istiqamətində isə sərhədlərarası layihələrin maliyyələşdirilməsi üçün işçi alətlərin yaradılması, Türk İnvestisiya Fondunun inkişafı, maliyyə koordinasiyası mexanizmlərinin işlənməsi və dövlət-özəl tərəfdaşlığının gücləndirilməsi kimi məsələlər müzakirə predmeti olub.

R.Bayramlı qeyd edib ki, təhlükəsizlik məsələləri, xüsusən də regional təhlükəsizliyin təmin edilməsi, terrorizm və transmilli cinayətkarlıqla mübarizə, kibertəhdidlər və mövcud geosiyasi vəziyyətin müzakirəsi də gündəlikdə yer alır: "Bununla yanaşı, rəqəmsal transformasiya - "ağıllı şəhər"lər, rəqəmsal idarəetmə, İT-həllərin mübadiləsi və "yaşıl gündəlik" kimi istiqamətlər də diqqət mərkəzindədir. Ümumilikdə, sammit türk dünyasında dövlətlər arasında əməkdaşlığın daha da möhkəmlənməsinə, siyasi, iqtisadi və mədəni təşəbbüslərin irəlilədilməsinə töhfə verəcək. Tədbirdə Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun iştirak etməsi üzv və müşahidəçi ölkələrin əməkdaşlığı daha da dərinləşdirmək niyyətini bir daha göstərir. Sammit həm də regional çağırışların müzakirəsi və strateji tərəfdaşlıqların gücləndirilməsi üçün platforma olacaq".

Ekspert deyib ki, 2024-cü ildə Bişkekdə keçirilən əvvəlki sammitdən sonra Türk Dövlətləri Təşkilatı bir sıra istiqamətlərdə irəliləyiş əldə edib. İqtisadi inteqrasiya, rəqəmsal əməkdaşlıq və təhlükəsizlik sahələrində əsas təşəbbüslər təsdiqlənib, gömrük prosedurlarının sadələşdirilməsi, nəqliyyat dəhlizlərinin və rəqəmsal kooperasiyanın inkişafı üzrə proqramlar işə salınıb. 2022-ci ildə Səmərqənddə təməli qoyulmuş Türk İnvestisiya Fondu artıq birgə layihələrin maliyyələşdirilməsi alətinə çevrilməkdədir, eyni zamanda iştirakçı ölkələrin mərkəzi bankları arasında koordinasiya tədbirləri müzakirə olunur. "Ötən il Şuşada keçirilən sammitdə Qarabağ Bəyannaməsinin imzalanması, həmçinin bu il Budapeştdə baş tutan qeyri-rəsmi görüş üzv ölkələrdən kənar dialoqun genişlənməsi meylini nümayiş etdirdi. 2025-ci ilin sentyabrında Bişkekdə TDT ölkələrinin hökumət başçılarının ilk görüşü keçirildi. Bundan başqa, təşkilat nümayəndələri standartların qarşılıqlı tanınması, viza rejimlərinin sadələşdirilməsi və akademik mübadilənin inkişafı üzərində çalışırlar. Bu proseslər mürəkkəbdir və müvafiq qurumlar səviyyəsində əlavə razılaşdırmalar tələb edir", - deyə BMTM rəsmisi əlavə edib.



R.Bayramlı Azərbaycan üçün TDT-nin xüsusi strateji əhəmiyyət daşıdığını söyləyərək konsultativ şura kimi fəaliyyətə başlayan təşkilatın bu gün güclü inteqrasiya formatına çevrildiyini və bu prosesdə rəsmi Bakının əsas rol oynadığını vurğulayıb. Azərbaycan həm üzv dövlətlərlə, həm də müşahidəçi ölkələrlə münasibətləri inkişaf etdirir. Məsələn, 2021-ci ildən etibarən Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında bəyannamə, 2024-cü ildən isə Azərbaycan və Özbəkistan arasında müttəfiqlik haqqında saziş qüvvədədir.

O qeyd edib ki, Türk Dövlətləri Təşkilatı formatı vasitəsilə Azərbaycan nəqliyyat, energetika və təhlükəsizlik sahələrində əsas təşəbbüsləri irəli sürərək strateji mövqelərini gücləndirir. Bu, ölkəyə təkcə ikitərəfli əlaqələri möhkəmləndirmək deyil, həm də bütün türk dünyasının uzunmüddətli gündəliyini formalaşdırmaq imkanı verir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

# 5 il öncə Azərbaycanın strateji obyektləri də erməni terrorçularının hədəfində idi

## Düşmən hətta işıq mənbəyimiz Mingəçevirə raket tuşlamışdı

**Artıq bütün dünya bundan da xəbərdardır ki, 44 günlük Vətən müharibəsinin davam etdiyi günlərdə erməni faşistləri bütün beynəlxalq qayda-qanunları və humanizm prinsiplərini pozaraq, döyüş meydanından kənarda insan təlafatına səbəb olan qanlı cinayətlər törədirdilər.**


























Gəncədə, Tərtərdə, Bərdədə və digər yaşayış məntəqələrində dinc sakinlərə ölümsaçan silahlar yönəldərək, əslində, xalqımıza qarşı növbəti soyqırımı həyata keçirirdilər. Bu azmış kimi, vacib infrastruktur obyektlərini də hədəfə alırdılar.

Bir sözlə, döyüş meydanındakı ardıcıl məğlubiyyətinin qisasını almaq istəyi ilə düşmən öz vəhşi əməllərindən əl çəkmir, odla oynayırdı. Erməni faşistləri atdıqları raketlərdən birini döyüş getdiyi ərazilərdən xeyli uzaqda yerləşən Xızı rayonuna tuşlamışdılar. Müəyyənləşdirilmişdir ki, raket 300 kilometr radiusda hədəfləri vurmaq imkanına, 250-280 kilometr məsafədə uçuş qabiliyyətinə malikdir. O, Xızı rayonunun Sitalçay qəsəbəsi ərazisində havada zərərsizləşdirilmiş və şumlanmış əkin sahəsinə düşərək üç hissəyə bölünmüşdü. Xoşbəxtlikdən heç kim xəsarət almamışdı. Qeyd edək ki, buradan cəmi 250 metr aralıda Bakı-Novorossiysk neft kəməri keçir.

Erməni vandalları dərk etmirdilər ki, neft və qaz kəmərlərinə atəş açmaqla təkcə Azərbaycana deyil, eyni zamanda həmin layihələrdəki xarici tərəfdaşların hamısına zərbə endirməyə cəhd göstərirdilər. Ermənilər bu və digər layihələrə vəsait yönəltmiş səhmdarlar, istehsalçı, istehlakçı və tranzit ölkələr qarşısında öz mənfur niyyətlərinə, cinayətkar əməllərinə görə cavabdehlik daşıyırdılar.

Təsadüfi deyil ki, Prezident İlham Əliyevə xarici jurnalistlərin verdiyi suallardan biri bu hərəkətin Azərbaycan neftinin və qazının dünya bazarına çatdırılması üçün hansı riskləri yarada biləcəyi ilə bağlı idi. Dövlətimizin başçısı cavabında demişdir: "Əgər onlar vəd etdiklərini reallaşdıra bilsələr, konkret olaraq, Səngəçal terminalını və ya bizim neft və qaz kəmərlərimizi bombalaya bilsələr, bu, əlbəttə, risklərlə bağlı olacaq. İndiki halda düşünürəm ki, onları qınayacaqlar, çünki bu neft və qaz, əsasən, avropalı istehlakçılara lazımdır. Sirr deyil ki, Azərbaycandan çəkilən qaz kəməri müəyyən dərəcədə, çox yox, müəyyən dərəcədə bəzi Avropa ölkələrinin enerji təhlükəsizliyinə şərait yaradır və yaradacaq".

Yevlax rayonunun Aran qəsəbəsində Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin ikinci nasos stansiyasına raket tuşlayan düşmən Azərbaycanı, həmçinin Səngəçal terminalına hücum edəcəyi ilə hədələyirdi.

Xatırladaq ki, Səngəçal terminalı dünyanın ən böyük neft-qaz terminallarından biri, karbohidrogenlərin ixracının regional mərkəzidir. Azərbaycan neftini və qazını dünya bazarlarına nəql edən kəmərlər başlanğıcını buradan götürür. Azərbaycanın belə mühüm əhəmiyyətə malik bir sənaye infrastrukturunu düşmənin gözü, əlbəttə, götürə bilməzdi. Bunun bir səbəbi də odur ki, vaxtilə bu qlobal layihələr həyata keçirilərkən Ermənistan öz işğalçılıq əməllərinə görə onlardan kənarda, dalanda qalmışdı.

Müsahibələrinin birində Prezident İlham Əliyev bu məsələyə də toxunmuşdur: "Ermənistanın rəsmi nümayəndələrindən hədələr eşitmişik ki, onlar bizim kəmərlərimizə hücum edəcəklər, neft-qaz nəqli üçün mühüm olan Səngəçal terminalına hücum edəcəklər. Lakin bu da onların terrorçu xislətinin bir hissəsidir. Çünki onlar açıq şəkildə bəyan edirlər ki, mülki infrastruktura hücum edəcəklər. Əlbəttə ki, əgər onlar bunu etsə, peşman olacaqlar. Çünki bizim tərəfimizdən və həmçinin enerji təhlükəsizliyinin bir hissəsini Azərbaycandan təmin edən ölkələr tərəfindən sərt şəkildə cəzalandırılacaqlar. Həmin ölkələrin reaksiyası necə olacaq? Bu kəmərlərə milyardlarla dollar investisiya yatırılıb. Beynəlxalq banklar, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və başqaları kimi bütün aparıcı beynəlxalq banklar investisiya yatırıblar. Ona görə də Ermənistan rəhbərliyi bu cür variant barədə yaxşı düşünməlidir. Əlbəttə, qeyd etdiyim kimi, Azərbaycan özü onları sərt şəkildə cəzalandıracaq və mən düşünmürəm ki, onlar bunu, daha bir müharibə cinayətini etməyə cürət göstərəcəklər".

Mingəçeviri, buradakı böyük elektrik stansiyasını bombalamaqda isə məqsəd Azərbaycanın enerji sistemini dağıtmaq idi. Əlbəttə, vandallar bu mənfur niyyətlərinə də çatmadılar. Həm də onlar unudurdular ki, bizim artıq şaxələnmiş enerji təchizatı şəbəkəmiz, çoxsaylı yeni elektrik stansiyalarımız var.

Məlum olduğu kimi, bu ilin iyun ayında Mingəçevirdə, "Azərbaycan" İstilik-Elektrik Stansiyasının ərazisində daha nəhəng bir enerji obyekti istifadəyə verildi. Şanlı Qələbəmiz şərəfinə "8 Noyabr" adlandırılan həmin elektrik stansiyasının açılışında Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsi zamanı düşmənin bu əraziyə raket tuşladığını da xatırladı və həmin yeri qonaqlara da göstərdi: "Bizim torpaqlarımız uzun illər işğal altında olmuşdur və İkinci Qarabağ müharibəsində Ermənistan nəinki bizim şəhər-kəndlərimizi və yaşayış obyektlərini məqsədyönlü şəkildə atəş altında saxlayırdı, hətta buraya da - Mingəçevirə də öz raketlərini göndərməyi də unutmamışdı - əgər belə demək mümkündürsə. Bunun da məqsədi bizim enerji infrastrukturumuzu iflic vəziyyətinə salmaq idi. Hətta İkinci Qarabağ müharibəsindən əvvəl bizi hədələmək üçün bir neçə üsuldan istifadə edən Ermənistan, o cümlədən Mingəçeviri bombalamaq, burada su bəndini dağıtmaq və Mingəçevir Elektrik Stansiyasını sıradan çıxarmaq kimi təhdidlər də səsləndirirdi. Buraya, bu əraziyə düşən həm mərmilər, həm də ki, uzaqmənzilli raketlər bunun əyani sübutudur. Bu, dinc əhaliyə, mülki infrastruktura yönəlmiş təcavüz idi və hərbi cinayətdir".

Mənfur erməni vandalları işığımızı söndürə bilmədilər. Üstəlik, indi işıqlarımız daha gur yanır. Müstəqil, suveren Azərbaycanımızın hər kəndində və hər şəhərində!

*Flora SADIQLI,*
*"Azərbaycan"*

ZƏFƏR gündəliyi

8 oktyabr 2020-ci il

# Erməni əsgəri silahını da, bayrağını da atıb qaçır

### Bərdəyə "Toçka-U" taktiki raket kompleksindən atəş açılıb



Səhər saatlarından başlayaraq, Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam rayonlarının kəndlərini artilleriya atəşinə tutublar. Mülki əhali arasında ölən və yaralananlar olub.

Bu azmış kimi, Ermənistan silahlı qüvvələri Bərdə və Ağcabədi rayonlarının kəndlərini də atəşə tutub.

Bərdə rayonu ərazisinə "Toçka-U" taktiki raket kompleksindən atəş açılıb.

### Düşmənin hərbi kolonu darmadağın edilib

Gecə döyüşləri zamanı Ermənistan silahlı qüvvələrinin hərbi hissə qərargahına, istehkamlarına və silah-sursat anbarlarına artilleriya zərbələri endirilib.

Gündüz saatlarında yerdəyişməyə cəhd göstərən düşmənin döyüş texnikası artilleriya atəşi ilə məhv edilib. Düşmənin hərbi kolonu darmadağın edilib.

### Erməni əsgərinin qoyub qaçdığı zirehli texnikalar qənimət kimi götürülüb

Füzuli rayonunun işğaldan azad olunan Horadiz kəndində erməni hərbçilərin qaçarkən tərk etdiyi zirehli texnikalar bölmələrimiz tərəfindən ələ keçirilib.

Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər və Ağdam rayonlarının kəndlərini artilleriya atəşinə tutublar. Ordumuzun bölmələri tərəfindən düşmənə qarşı adekvat tədbirlər görülüb.

### Ermənistan Füzuliyə qadağan olunmuş fosforlu mərmi atıb

Füzuli rayonunun ərazilərinə ağ fosforlu tüstülü mərmi atılıb. Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) xüsusi mobil əməliyyat qruplarının Füzuli rayonu ərazisində apardıqları əməliyyat-axtarış tədbirləri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən atılmış 122 millimetrlik tüstülü top mərmisi (D-4) aşkarlanıb. Mərminin tərkibində 3,6 kiloqram ağ fosfor (P-4) olub.

Bu cür mərmilərin mülki əhaliyə və obyektlərə qarşı istifadə edilməsi beynəlxalq humanitar hüququn tələblərinə və prinsiplərinə görə qadağandır.

### Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının qərargah binası dağıdılıb



Günün ikinci yarısından başlayaraq, bütün cəbhəboyu gərgin döyüşlər davam edib. Azərbaycan Ordusunun bölmələri mühüm istiqamətlərdə düşmənə atəş zərbələri endirərək onun hərəkət fəaliyyətini tam məhdudlaşdırıb və aktivliyinin qarşısını qətiyyətlə alıblar.

Həyata keçirilən hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusunun atəş zərbəsi nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının qərargah binası dağıdılıb. Nəticədə binada olan 10-cu dağatıcı diviziyanın qərargah rəisi polkovnik Samvel Qriqoryan ağır yaralanıb, alayın artilleriya rəisi polkovnik-leytenant Arman Dermeyan və xeyli sayda hərbi qulluqçu məhv edilib.

Azərbaycan Ordusunun Xankəndi şəhərinə endirdiyi atəş zərbələrindən ağır itkilərə məruz qalan Ermənistan silahlı qüvvələrinin burada yerləşən hərbi hissələrinin şəxsi heyəti təxliyə edilib. Xankəndidə yerləşən hərbi hissələrdən birinin sığınacağına endirilən artilleriya atəşi nəticəsində xeyli sayda hərbi qulluqçu məhv edilib.

### Düşmənin 19 zirehli texnikası, 5 artilleriya qurğusu, 2 radar sistemi məhv edilib



Gün ərzində ümumilikdə düşmənin 13 ədəd T-72 tankı, 2 ədəd PDM-i, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 2 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 3 ədəd D-30 haubitsa topu, 2 ədəd radar sistemi və xeyli sayda avtomobil texnikası dəqiq atəşlə məhv edilib və sıradan çıxarılıb.

Cəbhənin istiqamətlərindən birində həyata keçirilən əməliyyat nəticəsində Ermənistan silahlı qüvvələrinin 49-cu tank briqadasına məxsus 6 ədəd T-72 tankı tam işlək vəziyyətdə ələ keçirilib.

*R.BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Turizm yeni inkişaf mərhələsinə qədəm qoyur

## Kənd turizminin coğrafiyasının genişlənməsi bəzi bölgələrdə yeni iş yerlərinin açılmasına səbəb olur

Zəngin təbiətə, qədim tarixə və mədəni irsə malik ölkəmizdə kənd turizmi geniş potensiala malikdir. Təbiətə yaxınlıq, tarixi və mədəni zənginlik, eləcə də səmimi evsahibliyi turistlərə həm dincəlmək, həm öyrənmək, həm də unudulmaz təəssüratlar qazanmaq imkanı verir. Hər bölgənin özünəməxsus üstünlükləri kənd turizmini daha cəlbedici edir. Bu turizm növünün coğrafiyası genişləndikcə təbii ki, yeni iş yerlərinin sayı da artır.

Car ildə Dövlət Turizm Agentliyi tərəfindən ölkəmizdə 8 kənd seçilərək turizm infrastrukturu layihəsinə daxil edilib. Bu kəndlər unikal bölgələrdə yerləşir. Siyahıya Qusarın Ləzə, Qubanın Qrız, Qaxın İlisu və Sarıbaş, Qəbələnin Duruca, İsmayıllının İvanovka, Lerikin Bibiyani və Astaranın Sım kəndi daxildir.

Turizm üzrə ekspert Rəhman Quliyev mətbuata açıqlamasında bildirir ki, bu kəndlər "Turistik kənd" konsepsiyasına uyğun olaraq gələcəkdə daxili və xarici turistlər üçün yeni marşrutların əsas hissəsinə çevriləcək. Layihə çərçivəsində artıq bir sıra işlər görülüb. Məsələn, Astaranın Sım kəndində turizm potensialı qiymətləndirilib və kənd regionun turizm marşrutuna daxil edilib. Son iki ildə yalnız bu kəndə hər ay təxminən 2 min turistin gəlməsi infrastrukturu inkişaf etdirməyin nə qədər vacib olduğunu göstərir. Bu cür layihələrin icrası nəticəsində kəndlərdə yeni iş yerləri açılır və əhalinin kənddən şəhərə axını nisbətən azalır.

Dünya təcrübəsində "Turistik kənd" modeli artıq özünü doğruldub. İtaliya, İndoneziya, Fransa kimi ölkələrdə bu format kəndlərin boşalmasının qarşısını alıb, əhalinin gəlirini artırıb və milli mətbəx ilə sənətkarlığı dirçəldib.

Rəhman Quliyev bildirir ki, Azərbaycan bu təcrübəni öz coğrafiyasına uyğunlaşdırmaqla həm regionların sosial həyatını canlandıra, həm də kənd turizmini brend səviyyəyə qaldıra bilər.

Hazırda layihəyə daxil olan kəndlərdə həm infrastrukturun təkmilləşdirilməsi, həm də təbii və mədəni irsin qorunması istiqamətində işlər davam edir. Yeni konsepsiya başa çatdıqdan sonra bu kəndlərin hər biri Azərbaycanın turizm xəritəsində fərqli formada təqdim olunacaq.

Bölgələrin inkişafında turizmin rolu və imkanları genişdir. Misal üçün, İsmayıllı rayonu dağ-meşə relyefi, təmiz havası və qədim kəndləri ilə seçilir. Lahıc və Basqal kimi kəndlərdə sənətkarlıq, xüsusilə misgərlik turistlərin marağına səbəb olur. Burada həm də şərabçılıq və üzümçülük ənənələri qorunub saxlanılır. Şəki rayonu isə tarixi abidələri, Xan Sarayı, Böyük Karvansara, Kiş məbədi və zəngin mətbəxi ilə turistləri cəlb edir. Quba rayonunda yerləşən Xınalıq və Qrız kimi dağ kəndləri qədim yaşayış tərzini qoruyub saxlamış nadir məkanlardır. Bu kəndlərdə etnik-mədəni müxtəliflik, təbii gözəllik və xalq sənətkarlığı bir araya gəlir.

Qax rayonu da kənd turizmi üçün əlverişli bölgələrdəndir. İlisu kəndinin alban abidələri, dağ mənzərələri və yerli kulinariyası turistlər üçün cəlbedici elementlərdəndir. Lənkəran rayonu subtropik iqlimi, çay plantasiyaları, sitrus bağları və Hirkan Milli Parkı ilə fərqlənir. Lerik rayonu isə təmiz təbiəti, dağlıq relyefi və uzunömürlü insanları ilə tanınır. Burada folklor elementləri, yürüş marşrutları və ekoloji turizm imkanları genişdir.

Azad edilmiş Qarabağ və Şərqi Zəngəzur təkcə tarixi və siyasi əhəmiyyətinə görə deyil, həm də turizm potensialına görə diqqət mərkəzindədir. Füzuli rayonunda yerləşən kurqanlar, Azıx mağarası və digər arxeoloji abidələr təkcə Azərbaycan deyil, dünya miqyasında nadir tarixi irs nümunələridir. Azıx mağarası, dünyanın ən qədim insan yaşayış məkanlarından biri hesab edilir. Burada aparılan arxeoloji qazıntılar nəticəsində 350-400 min il əvvələ aid insan qalıqları aşkarlanıb. Bölgədə arxeoparkların yaradılması, tədqiqatların davam etdirilməsi və turizm marşrutlarının açılması Qarabağın Daş dövrü irsinin geniş tanıdılmasına xidmət edəcək.

Xocavənd rayonunun Tuğ kəndi tarixi memarlığı, təbiəti və şərabçılıq ənənələri ilə kənd turizmi üçün ideal məkandır. Tuğda aqroturizm, ekoturizm və mədəni turizmin paralel inkişafı mümkündür. Burada keçmiş şərab istehsalı ənənələrinin bərpası, festivalların təşkili və tarixi memarlığın qorunması kimi layihələr həyata keçirilə bilər. Şuşa şəhəri və ətraf ərazilər, xüsusilə Turşsu və Dəmirsu kimi müalicəvi suların olduğu ərazilər sanatoriya və sağlamlıq turizminin yenidən inkişafı üçün əlverişli şərait yaradır. Bu mineral sular vaxtilə mədə-bağırsaq və revmatik xəstəliklərin müalicəsində təsirli olub, sovet dövründə minlərlə insanın müalicə aldığı məkan kimi tanınıb.

Ağdam, Suqovuşan, Hadrut, Talış, Kəlbəcər və Laçın kimi ərazilərdə də kənd turizminin inkişafı üçün geniş imkanlar mövcuddur. Bu bölgələrdə həm dağ, həm meşə, həm də düzənlik relyeflərinin bir araya gəlməsi təbiətlə təmas istəyən turistlər üçün ideal şərait yaradır. Şuşaya çəkilən dəmir yolu və nəqliyyat infrastrukturunun yenilənməsi isə turizm axınını artıracaq.

Hazırda Qarabağ iqtisadi rayonunda olduğu kimi, bütün rayonlarda geniş tikinti işləri həyata keçirilir. Tarixi, mədəni və dini abidələrin bərpası ilə yanaşı, kənd təsərrüfatı sahələrinin canlandırılması da kənd turizminin inkişafı üçün əsas baza rolunu oynayır. Bölgəyə həm yerli, həm də xarici turistlərin marağını artırmaq üçün kompleks turizm infrastrukturları yaradılır. Bundan əlavə, Qusar, Xaçmaz, Şamaxı, Qəbələ, Zaqatala, Balakən, Tovuz, Gədəbəy, Yardımlı, Masallı, Ordubad və digər bölgələr də kənd turizmi üçün yüksək potensiala malikdir. Hər rayonun özünəməxsus təbiəti, mətbəxi və mədəniyyəti onu fərqli bir turizm destinasiyasına (səyahətçinin getdiyi yer) çevirə bilər.

Təbiəti zəngin olan bölgələr Azərbaycanın kənd turizmi potensialını nümayiş etdirir. Hər biri özünəməxsus təbiəti, tarixi və mədəniyyəti ilə seçilir və ziyarətçilərə fərqli istirahətlər vəd edir. Kənd turizminin bu bölgələrdə inkişafı həm də orada yaşayan insanların iqtisadi vəziyyətinin yaxşılaşdırılması ilə yanaşı, sosial bərabərlik, regional tarazlığın qorunması və milli-mədəni irsin təbliği baxımından strateji əhəmiyyət daşıyır.

Kənd turizmi istirahət və əyləncə vasitəsi olmaqdan əlavə, iqtisadi və sosial inkişafın mühüm alətlərindən biridir. Bu baxımdan təbii gözəllikləri, mədəni zənginliyi və qonaqpərvərliyi ilə seçilən kəndlər təkcə səyahətçilərin maraq dairəsinə çevrilmir, eyni zamanda kənd sakinlərinin rifahına, icmaların dirçəlməsinə və bölgələrin canlanmasına mühüm töhfə verir. Ölkəmizdə kənd turizminin inkişafı həm iqtisadi, həm də sosial baxımdan diqqətəlayiq təsirlər yaradır.

Ənənəvi olaraq kəndlərdə insanlar, əsasən, əkinçilik, heyvandarlıq və meşə təsərrüfatı ilə məşğul olurlar. Lakin turizmin inkişafı bu təsərrüfat fəaliyyətlərini tamamlayaraq alternativ qazanc imkanları təqdim edir. Yerli sakinlər turistlərə evlərini kirayə verə, məişət xidmətləri göstərə, yerli məhsul və əl işlərini sata bilərlər. Bu, həm kənddə işsizlik səviyyəsini azaldır, həm də gənclərin və qadınların iqtisadi fəaliyyətə daha fəal cəlb olunmasına şərait yaradır. Turizm gəlirləri kəndlərdə dövriyyəyə daxil olur, kiçik bizneslər yaranır və yerli iqtisadiyyat tədricən şaxələnir.

Ekspertlərin fikrincə, turistlərin bölgəyə axını yerli bazarların genişlənməsinə, kənd məhsullarının daha dəyərli şəkildə təqdim olunmasına və yeni biznes təşəbbüslərinin yaranmasına şərait yaradır. Məsələn, kəndlərdə qonaq evləri, çay evləri, restoranlar, sənətkarlıq emalatxanaları və kənd sərgiləri yaranır ki, bunlar da həm yerli iqtisadiyyatın güclənməsinə, həm də turizmdən əldə edilən gəlirin kənddə qalmasına xidmət edir. Kənd turizmi eyni zamanda infrastrukturun inkişafına təkan verir. Turistlərin rahatlığı üçün yollar təmir olunur, rabitə və internet imkanları genişlənir, ictimai obyektlər yenilənir. Bu infrastruktur təkmilləşmələri yalnız turistlər üçün deyil, kənd sakinləri üçün də gündəlik həyatı asanlaşdırır.

Görünən odur ki, bütün bunların nəticəsində əhaliyə sosial xidmətlərin keyfiyyəti artır, kəndlərin ümumi yaşayış səviyyəsi yüksəlir. Turizm yerli sakinlər arasında mədəni dəyərlərə olan marağı artırır. Adət-ənənələr, xalq sənətkarlığı, folklor, milli geyimlər və təamlar turizm sayəsində görünən və qorunan hala gəlir. İnsanlar öz kimliklərini və mədəni irslərini təqdim etməyə daha çox maraqlı olurlar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***



# Əmək və Sosial Münasibətlər Akademiyasında COP29-a həsr edilən elmi nəşrin təqdimatı keçirilib

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən Əmək və Sosial Münasibətlər Akademiyasında "İqlim dəyişikliklərinin həlli yolları: beynəlxalq əməkdaşlıq və elmi kommunikasiya" mövzusunda tədbir təşkil olunub.**









Tədbir çərçivəsində konfederasiyanın dəstəyi ilə hazırlanmış "Qlobal Davamlı İnkişaf Strategiyası: İnnovasiya, Modelləşdirmə və İttifaqlar" xüsusi elmi nəşrinin təqdimatı keçirilib. Bununla yanaşı, akademiyada Davamlı İdentifikatorların Təminatına Dəstək Mərkəzinin açılışı olub, həmçinin konfederasiyanın təşəbbüsü ilə keçirilmiş "Yaşıl gələcək bizim gözümüzlə" fotomüsabiqəsinin qalibləri mükafatlandırılıblar.

Tədbirdə hökumət nümayəndələri, Milli Məclisin deputatları, tanınmış elm xadimləri, Əmək və Sosial Münasibətlər Akademiyasının professor-müəllim heyəti iştirak ediblər.

Konfederasiya sədri Sahib Məmmədov çıxış edərək Azərbaycanın iqlim dəyişmələrinə qarşı mübarizədə həyata keçirdiyi siyasət və ölkəmizin evsahibliyi etdiyi COP29 çərçivəsində qəbul edilmiş qərarların qlobal əhəmiyyətindən bəhs edib.

Vurğulanıb ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası iqlim dəyişmələri ilə mübarizə, ətraf mühitin mühafizəsinə dair tədbirlər həyata keçirir və xüsusi elmi nəşrin hazırlanması bu istiqamətdə görülən işlərin davamıdır.

Nəşrdə yer alan məqalələrin elmi dəyəri, aktuallığı və COP29-un məqsədlərinin müəyyənləşdirilməsindəki rolu vurğulanıb. Bildirilib ki, nəşr iqlim dəyişmələri ilə bağlı elmi-tədqiqat işləri, oxucuların elmi potensialının inkişafı və müvafiq sahədə araşdırmalar üçün etibarlı istinad mənbəyidir.

Həmçinin yeni yaradılan Davamlı İdentifikatorların Təminatına Dəstək Mərkəzinin ölkəmizdə elmi nəşrlərin keyfiyyətinin artırılması və rəqəmsal identifikasiya sistemlərinin genişləndirilməsi baxımından önəmi qeyd edilib.



Tədbirdə çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Milli Məclisin deputatı akademik Ziyad Səmədzadə, ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva və Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, deputat Zahid Oruc xüsusi elmi nəşrin iqlim dəyişmələri ilə mübarizədə maarifləndirməyə dair önəmini və geniş oxucu auditoriyasında maraq doğuracağına inamlarını ifadə edib, eyni zamanda Davamlı İdentifikatorların Təminatına Dəstək Mərkəzinin yaradılmasının milli elmi jurnalların və nəşrlərin davamlı identifikatorlarla təmin olunması baxımından əhəmiyyətindən danışıblar.

Tədbir çərçivəsində Davamlı İdentifikatorların Təminatına Dəstək Mərkəzi tərəfindən bir sıra nəşrlərə rəqəmsal obyekt identifikatoru kodu verilib.

Sonda "Yaşıl gələcək bizim gözümüzlə" fotomüsabiqəsinin qalibləri mükafatlandırılıb.

***Nərminə ƏSGƏROVA,***
***"Azərbaycan"***

# *Ekspert Nodo İVANİDZE:* "Azərbaycanın ekosistemi maraqlı inkişaf mərhələsindədir "

Son illər Azərbaycan innovasiya və startaplar sahəsində regional mərkəz kimi fəal inkişaf edir. Strateji yerləşməsi, gənc və istedadlı nəsli, eləcə də dövlət dəstəyi sayəsində ölkə tədricən Cənubi Qafqaz və qonşu regionların texnoloji ekosistem xəritəsində əsas məntəqələrdən birinə çevrilir. AZƏRTAC startap-ekosistemlər üzrə ekspert, "Global Tech Weekend" tədbirinin həmtəsisçisi və "Steppe & Stone Capital" risk fondunun baş tərəfdaşı Nodo İvanidze ilə müsahibəni təqdim edir:

*- Cənubi Qafqaz və region ölkələri ilə müqayisədə Azərbaycan startap ekosisteminin hazırkı inkişaf səviyyəsini necə qiymətləndirirsiniz?*

- Azərbaycanın ekosistemi çox maraqlı inkişaf mərhələsindədir. Dövlətin güclü dəstəyi, innovasiyalara can atan gənc nəsil, eləcə də korporativ şirkətlər və investorlar tərəfindən artan maraq var. Azərbaycanın fərqləndirici cəhəti onun strateji yerləşməsidir. Belə ki, ölkə Avropa, Mərkəzi Asiya və Yaxın Şərq arasında körpü rolunu oynayır. Düzgün beynəlxalq əlaqələr qurulduğu təqdirdə, Azərbaycanın bu geniş innovasiya dəhlizinin əsas mərkəzlərindən birinə çevrilmək potensialı var.

*- Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə innovasiya ekosistemlərinin uğurlu inkişafına hansı əsas amillər təsir göstərir?*

- Mənim fikrimcə, üç əsas amil təsir göstərir. Birincisi, istedad və bacarıqlar - güclü peşəkar kadrların yetişdirilməsi universitetlər, ixtisaslaşmış təlimlər və korporativ təcrübə vasitəsilə baş verir. İkincisi, yüksək etimad və qarşılıqlı anlaşma - startap təsisçiləri, investorlar, dövlət strukturları və iri şirkətlər arasında əlaqə və koordinasiya vacibdir. Üçüncüsü isə real əməliyyatlar axınıdır - tərəfdaşlıqlar, uğurlu çıxışlar və faktiki investisiya razılaşmaları ekosistemdə uğurun mümkün olduğunu nümayiş etdirir.

İnkişaf etməkdə olan ölkələrdə ekosistemlər ən sürətli şəkildə o zaman inkişaf edir ki, hökumət dəstəkləyici qanunverici və təşkilati çərçivə yaradır, özəl investorlar və beynəlxalq tərəfdaşlar isə zəruri maliyyə və resursları təmin edirlər. Məhz buna görə "Global Tech Weekend" tədbiri birgə platforma kimi yaradılıb, belə ki, o, hökumətləri, startapları, investorları və beynəlxalq iştirakçıları bir araya gətirərək innovasiya mühitinin inkişafına şərait yaradır.

*- Azərbaycan startapları üçün beynəlxalq bazarlara, xüsusilə Mərkəzi Asiya və Şərqi Avropaya çıxış baxımından hansı imkan və çağırışlar görürsünüz?*

- İmkanlar kifayət qədər böyükdür. Azərbaycan mədəni, coğrafi və iqtisadi əlaqələr baxımından startaplarının təbii şəkildə Mərkəzi Asiya və Şərqi Avropa bazarlarına genişlənməsi üçün əlverişli şəraitə malikdir. Əsas çətinlik isə çox zaman düşüncə tərzində olur, yəni təsisçilər yalnız yerli bazar haqqında fikirləşməli deyil, həm də əvvəldən regional və qlobal ambisiyalarla da biznes qurmalıdırlar. Digər problem isə buranın kifayət qədər tanınmamasındadır, yəni bir çox beynəlxalq investorlar hələ də Azərbaycandakı istedad və potensial səviyyəsindən xəbərsizdir. Buna görə biz "Global Tech Weekend" tədbirini yaratdıq ki, Azərbaycanın da daxil olduğu ekosistemlər qlobal miqyasda tanınsın və yerli təsisçilər xarici imkanlarla birləşdirilsin.

*- Sizin fikrinizcə, yaxın illərdə Azərbaycanda startapların artımını hansı sahələr və texnologiyalar stimullaşdıracaq?*

- Məncə, yaxın illərdə Azərbaycanda startapların inkişafını bir neçə əsas sahə və texnologiyalar stimullaşdıracaq. Birincisi, təmiz enerji keçidi və iqlim innovasiyalarıdır. Bu, Azərbaycanın enerji sahəsində liderlərdən biri kimi roluna tam uyğundur. İkincisi, ölkənin Orta dəhliz üzərində strateji yerləşməsini və beynəlxalq ticarətdə mühüm rolunu nəzərə alaraq logistika və nəqliyyat xüsusi əhəmiyyət daşıyır. Həmçinin yaradıcı sənayelər və rəqəmsal medianı da qeyd etmək lazımdır. Burada istedadlı gənc nəslin qlobal bazarda tələb olunan məhsulları yaratmaq üçün bütün lazımi imkanları var. Üçüncüsü, fintex və süni intellekt sahələri də biznesin genişlənməsi və qlobal bazarlara çıxış baxımından mühüm alətlərdir.



Bütün bu sahələr təkcə ölkə daxilində deyil, həm də beynəlxalq miqyasda inkişaf və ekspansiya potensialına malikdir.

*- "Steppe & Stone Capital" kimi vençur fondları regionda innovasiyaların təşviqinə və startapların miqyasının genişlənməsinə necə töhfə verir?*

- "Steppe & Stone Capital"ın əsas məqsədi Qafqaz və Mərkəzi Asiyanın potensialını üzə çıxarmaqdır. Biz erkən mərhələlərdə kapital, aktiv mentorluq və qlobal əlaqələr təmin edirik ki, təsisçilər autsorsinq və xidmətlərdən orijinal məhsul yaradılmasına keçə bilsinlər. Bizim yanaşmamız iki istiqamətlidir: həm sürətlə böyüyən startapları, həm də ümumi ekosistemi gücləndirən şirkətləri dəstəkləyirik. Əlaqələrin qurulmasını təmin edən "Global Tech Weekend" ilə birgə biz startaplara yalnız investisiya cəlb etməyə deyil, həm də bazarlara, tərəfdaşlara və istedadlara çıxış əldə etməyə kömək edirik.

*- Azərbaycan startaplarının regional və beynəlxalq inteqrasiyası nə dərəcədə vacibdir və onun möhkəmlənməsi üçün hansı addımlar atıla bilər?*

- Regional və beynəlxalq inteqrasiya Azərbaycan startapları üçün mühüm əhəmiyyətə malikdir. Heç bir ekosistem təcrid şəraitində uğurla inkişaf edə bilməz. Azərbaycanlı təsisçilər regiondakı həmkarları ilə sıx əlaqədə olduqda və qlobal şəbəkələrə çıxış əldə etdikdə daha çox fayda qazanırlar. Bu inteqrasiya Mərkəzi Asiya, Şərqi Avropa və Yaxın Şərq ekosistemləri ilə fəal əməkdaşlığı, təcrübə və resurs mübadiləsini, bazarların genişləndirilməsini nəzərdə tutur.

Eyni zamanda beynəlxalq investorlar və tərəfdaşlarla etibarlı münasibətlərin qurulması yeni maliyyələşmə və böyük layihələr üçün imkanlar açır. Azərbaycan innovasiyalarının dünya səviyyəsində nümayiş etdirilməsi isə ölkənin tanınmasını və qlobal diqqətin artmasını təmin edir.

Bu inteqrasiyanın gücləndirilməsi üçün daha çox sərhədlərarası proqramların inkişaf etdirilməsi, birgə fondların və ko-investisiya təşəbbüslərinin yaradılması vacibdir. "Global Tech Weekend" kimi tədbirlər bu prosesdə mühüm rol oynayır, belə ki, onlar müxtəlif ölkələri vahid platforma altında birləşdirən mərkəzləşmiş hərəkat funksiyasını yerinə yetirir. Belə təşəbbüslər sayəsində Bakı, Daşkənd və Tbilisidən olan startaplar qlobal innovasiya ekosisteminə bağlı vahid, güclü regional dalğanın bir hissəsi kimi qəbul olunur.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## İslam İnkişaf Bankı Qrupu ilə əməkdaşlığın genişləndirilməsi müzakirə olunub



**İqtisadiyyat Nazirliyində İslam İnkişaf Bankının baş katibi ilə görüşdə iqtisadi əlaqələrin inkişafı istiqamətində fikir mübadiləsi aparılıb.**

İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli İslam İnkişaf Bankının baş katibi Riad Raqib Əhmədlə görüşüb.

Görüşdə Azərbaycanın İİB-lə əməkdaşlığının uğurlu inkişafından məmnunluq ifadə olunub. Səmərəli əməkdaşlığın ölkəmizdə biznes mühitinin inkişafına, sahibkarlığın dəstəklənməsinə və qeyri-neft sektorunda investisiya imkanlarının artırılmasına mühüm töhfə verdiyi diqqətə çatdırılıb.

İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üçün nəzərdə tutulan İllik Toplantılarının Bakıda keçirilməsinin Qrupa üzv ölkələr arasında regional və beynəlxalq tərəfdaşlıqların möhkəmlənməsində önəmi vurğulanıb. Tədbirlərin islam maliyyə institutları ilə əməkdaşlığın genişlənməsinə, eləcə də Azərbaycanın iqtisadi və investisiya potensialının beynəlxalq miqyasda tanıdılmasına mühüm töhfə verəcəyi nəzərə çatdırılıb.

Tərəflər iqtisadiyyat və maliyyə sahələrində tərəfdaşlığın möhkəmləndirilməsi, prioritet sahələrdə əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparıblar.

## Ralf HORLEMANN: "Azərbaycanda Orta dəhlizin fəaliyyəti üçün geniş infrastruktur layihələr həyata keçirilib"

**"Avropa ilə Asiya qitələri arasında ticarət əlaqələrinin inkişafına böyük stimul verən Orta dəhliz sülh prosesi üçün də əhəmiyyət kəsb edir. Çünki söhbət Azərbaycanın Ermənistan üzərindən Türkiyə və Avropa İttifaqı ilə birləşməsindən gedir".**

Bu sözləri Almaniyanın Azərbaycandakı səfiri Ralf Horlemann Bakıda keçirilən Almaniya-Azərbaycan ixracat və maliyyə konfransı çərçivəsində keçirilən Mətbuat konfransında çıxışı zamanı deyib. AZƏRTAC xəbər verir ki, diplomatın sözlərinə görə, Azərbaycanda Orta dəhlizin fəaliyyəti üçün geniş infrastruktur layihələri həyata keçirilib. "Yüklərin qatar və avtomobillə daşınması üçün imkanlar yaradılıb ki, bunlar da yüksək qiymətləndirilir. Biz Azərbaycanın yol, dəmir yolu, limanlar və ümumilikdə ticarət üçün son dərəcə vacib olan infrastruktur sahəsinə yatırdığı bütün investisiyaları yüksək qiymətləndiririk. Bu, həm alman şirkətlərinin idxal və ixrac əməliyyatları üçün, həm də investorlar üçün müsbət tendensiyadır. Azərbaycanın formalaşdırdığı infrastruktur layihələr və investisiya mühiti şirkətlər üçün yaxşı imkanlardır", - deyə səfir vurğulayıb.

# Özünüməşğulluq proqramı - məşğulluğun doğru və səmərəli yolu

**Son bir neçə ildə dünya əhalisinin qarşılaşdığı sosial problemlərdən biri, bəlkə də birincisi işsizlikdir. Bunun bir səbəbi İKT-nin, süni zəkanın həyatın bütün sahələrinə ağlagəlməz dərəcədə daxil olmasıdırsa, digəri iqtisadi durğunluq və müharibələr üzündən milyonlarla insanın iş yerlərini itirməsidir.**



Bu gün iki qütbə bölünən dövlətlər arasında başlanan gərginlik, silahlı münaqişələr və qarşılıqlı sanksiyalar dünya iqtisadiyyatına ciddi zərbə vurur. Qlobal iqtisadiyyata kapital qoyuluşu azalır, istehsalın səviyyəsi aşağı düşür, beynəlxalq ticarət zəncirində böyük qırılmalar baş verir, mühüm ticarət marşrutlarının fəaliyyəti iflic vəziyyətə düşür. Bütün bunlar isə təbii ki, qlobal iqtisadiyyatın kiçilməsi, iş yerlərinin azalması ilə müşahidə olunur.

Azərbaycan lideral iqtisadiyyata malik ölkədir. Yəni qapalı deyil, dünya iqtisadiyyatına inteqrasiya edilib. O səbəbdən qlobal iqtisadiyyatda baş verən kataklizmlər ölkəmizdən də yan keçmir. Buna baxmayaraq, dövlətimiz əhalinin üzləşdiyi sosial problemləri həll etmək üçün əməli tədbirlər görür, o cümlədən məşğulluq probleminin həllinə xüsusi diqqət verir. Çünki əhalinin məşğulluğu onun sosial qayğılarının həllinin ən doğru və səmərəli yoludur. O üzdən ölkəmizdə əhalinin məşğulluğunu təmin etmək üçün müxtəlif sosial proqramlar icra olunur, beynəlxalq qurumlarla sıx əməkdaşlıq əlaqələri qurulur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin açıqladığı hesabatlardan aydın olur ki, məşğulluq probleminin həlli zamanı cəmiyyətin həssas təbəqəsinə - şəhid ailələrinə, əlillərə, doğma torpaqlarına qayıdan keçmiş məcburi köçkünlərə üstünlük verilir. Nazirlikdən verilən məlumata görə, tabeliyindəki Dövlət Məşğulluq Agentliyi Cəbrayıl rayonuna köçürülmüş sakinlərlə bağlı aktiv məşğulluq tədbirləri həyata keçirir. Həmin sakinlərdən artıq 883 nəfər məşğulluq tədbirlərinə cəlb olunub. Onlardan 811 nəfərinin rayon ərazisində məşğulluğu təmin edilib. Bundan əlavə, 40 nəfər üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatlar yaradılıb, qalan 72 nəfər isə əmək bazarının tələblərinə uyğun peşələr üzrə hazırlıq kurslarına cəlb edilib. Daha bir qrup sakinin də məşğulluğuna dəstək üçün onların məşğulluq imkanları qiymətləndirilir və hansı məşğulluq proqramına cəlb olunacaqları müəyyən edilir.

Həssas təbəqədən olan müharibə iştirakçılarının məşğulluğu istiqamətində görülən tədbirlər də davam edir. Söz düşmüşkən bildirək ki, Vətən müharibəsindən sonrakı dövrdə 13,3 mindən çox müharibə iştirakçısı özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatlar yaradıb.

Dövlət Məşğulluq Agentliyi tərəfindən bu yaxınlarda özünüməşğulluq proqramı çərçivəsində daha bir qrup müharibə iştirakçısına seçdikləri biznes istiqamətləri üzrə avadanlıqlar təqdim edilib. Həmin avadanlıqlar hesabına proqram iştirakçıları avtotəmizləmə, kişi bərbərxanası və s. fəaliyyət istiqamətləri üzrə kiçik biznes sahələrini qurublar.

Digər vətəndaşların məşğulluğu da diqqətdən kənarda qalmır. Agentlik özünüməşğulluq proqramı iştirakçılarının aktivlərlə təminatı prosesini davam etdirir. Ötən ay paytaxt və regionlarda daha 1290 işsiz və işaxtaran şəxsə öz kiçik biznes təsərrüfatlarını yaratmaq üçün bu proqram çərçivəsində mal və materiallar formasında aktivlər təqdim olunub. Onlardan 223-ü istehsal və xidmət, 1067-si isə kənd təsərrüfatı istiqaməti üzrə proqrama cəlb edilənlərdir.

Onu da qeyd edək ki, proqrama cəlb olunanlar üçün əvvəlcə təlimlər təşkil edilir, onlara kiçik biznesin təşkili və idarə olunmasına dair bilik və bacarıqlar öyrədilir. Təlimlərdən sonra özünüməşğulluq istiqaməti üzrə biznes planlarına uyğun aktivlərlə təmin olunurlar.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Köhnə neft-qaz yataqlarının təzə həyatı başlayır

## "Bahar" və "Qum-dəniz"in yenidən işlənməsini sürətləndirmək üçün tərəfdaşlıq sazişi imzalanıb

**Xəzərin Azərbaycan sektorundakı "Bahar" və "Qum-dəniz" yataqlarının yenidən işlənməsini sürətləndirmək üçün SOCAR və SLB şirkətləri tərəfdaşlıq edəcəklər. Bu şirkətlərin cari ayın əvvəlində imzaladıqları sənəd həmin məqsədi daşıyır.**

Əvvəla qeyd edək ki, sözügedən hər iki yataq Azərbaycan neftçiləri tərəfindən kəşf olunub və keçən əsrdən fəaliyyətdədir. Bakı şəhərindən cənub-şərq istiqamətdə 21 kilometr məsafədə yerləşən "Qum-dəniz" neft yatağının dərinliyi 1-2 metrdən 14-15 metr intervalında dəyişir. 1961-ci ildə kəşf olunmuş bu yataq 120 kvadratkilometr sahəni əhatə edir. Uzun illərdir istismar olunmasına baxmayaraq, burada hələ xeyli neft və qaz ehtiyatının olduğu proqnozlaşdırılır.




Bu tərəfdaşlıq perspektivli hasilat zonalarının müəyyənləşdirilməsini, hərtərəfli rezervuar modelləşdirməsinin işlənib hazırlanmasını və yataqlarda Erkən Hasilat Sxemini (EPS) dəstəkləmək üçün quyu və qazma qurğuları proqramlarının layihələndirilməsini nəzərdə tutur.

Layihə SOCAR-ın neft hasilatını artırmaq və yetkin dəniz aktivlərinin istismar müddətini uzatmaq üzrə uzunmüddətli strategiyasında mühüm rol oynayacaq. Bu təşəbbüs əməliyyat səmərəliliyini və davamlılığı təmin etməklə yanaşı, hasilatı sürətləndirmək üçün praktik inkişaf ssenarilərini hazırlayacaq.

İşlənməyə başlandığı vaxtdan indiyədək "Qum-dəniz" yatağında 500-ə yaxın quyu qazılıb, 29 milyon tondan artıq neft və 128 milyard kubmetrə qədər qaz hasil edilib.

"Bahar" yatağı isə dənizdə paytaxtımızdan 40 kilometr cənub-şərqə doğru yerləşir. Bu yataq digərindən ehtiyatlarının qaz-kondensat olması ilə seçilir. Yataq 1968-ci il mart ayının 21-də kəşf olunub və növbəti ildən sənaye işlənməsinə verilib. "Bahar" yatağında indiyədək 200-dən artıq quyu qazılıb və onlar 13 milyon ton kondensat, milyardlarla kubmetr qaz verib. Bu yatağın da qalan ehtiyatları barədə proqnozlar nikbindir.

Onu da deyək ki, hazırda hər iki yataqda hasilat müasir texnologiyalara və ekoloji standartlara uyğun həyata keçirilir. Bu yanaşma həm hasilatın səmərəliliyini artırır, həm də Xəzər dənizinin təbii mühitinin qorunmasına şərait yaradır. Gələcəkdə hasilatın artırılması və yeni texnologiyaların tətbiqi ilə bu yataqların ölkə iqtisadiyyatına töhfəsinin daha da artacağı gözlənilir.

Qaldı ki, sözügedən yataqların işlənməsinin sürətlənməsində SOCAR-la tərəfdaşlıq edən şirkətə, bu, əvvəllər "Schlumberger" adlanan və Azərbaycanda yaxşı tanınan SLB-dir. SLB neft və qaz hasilatı sahəsində dünyanın ən böyük xidmət şirkətlərindən biridir. ABŞ-nin bu neft nəhənginin əsas əməliyyat mərkəzləri Hyuston, Paris, London və Haaqada yerləşir. Qurum neft və qaz sektoruna texnologiyalar, layihə menecmenti və digər xidmətlər sahəsində ixtisaslaşıb.

Layların inteqrasiya olunmuş qiymətləndirilməsi, quyuların tikintisi, hasilatın idarə edilməsi və karbohidrogen emalı üzrə aparıcı qlobal texnoloji təchizatçı olan şirkət Azərbaycanla yanaşı, dünyanın 100-dən çox ölkəsində fəaliyyət göstərir. SLB enerji dekarbonizasiyasının gələcəyinə baxışını vurğulayaraq dünyanın ən böyük neft-mədən xidmətləri şirkətindən qlobal texnoloji şirkətinə çevrilməyi hədəfləyir.

Təsadüfi deyil ki, sözügedən imzalanma mərasimində SOCAR-ın İşlənmə və Hasilat Əməliyyatları seqmenti üzrə vitse-prezidenti Babək Hüseynov bu iki şirkət arasındakı uğurlu əməkdaşlıq əlaqələrindən bəhs edib. Layihənin qabaqcıl üsullardan istifadə etməklə yetkin yataqlarda hasilatı optimallaşdırmaq istiqamətində atılan mühüm addım olduğunu diqqətə çatdırıb, "Bahar" və "Qum-dəniz" yataqlarının yenidən qurulmasının növbəti mərhələlərinin texniki əsasının qoyulacağına inam bəslədiyini bildirib.

Mütəxəssislərin fikrincə, SOCAR ilə SLB şirkəti arasında Xəzər dənizindəki "Bahar" və "Qum-dəniz" yataqlarının yenidən işlənməsini sürətləndirməklə bağlı imzalanmış tərəfdaşlıq sazişi aktivində olan dəniz yataqlarının istismar müddətini uzatmaq və karbohidrogen hasilatını artırmaqla bağlı SOCAR-ın uzunmüddətli strategiyasının tərkib hissəsidir. Saziş qarşıdakı illərdə qoyulacaq sərmayələr qarşılığında hər iki yataqda perspektivli hasilat zonalarının müəyyənləşdirilməsinə və aktiv quyu fondunun artırılmasına səbəb olacaq. Bu da hasilat göstəricilərinin artması ilə nəticələnəcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## II Azərbaycan Halal Biznes Forumu çərçivəsində sənədlər imzalanıb

**Bakıda keçirilən 2-ci Azərbaycan Halal Biznes (AZHAB) Forumu çərçivəsində iki sənəd imzalanıb.**

AZƏRTAC xəbər verir ki, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Türkiyənin Bilişim Vadisi arasında imzalanmış Anlaşma Memorandumuna əsasən, Bilişim Vadisi Bakı İqlim Bəyannaməsinə dəstəyini ifadə edib.

Sənəddə "yaşıl iqtisadiyyat", "yaşıl texnologiya"lar və "yaşıl sahibkarlıq" kimi istiqamətlər üzrə maarifləndirici tədbirlərin və ortaq təşəbbüslərin həyata keçirilməsi, ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq məsələləri nəzərdə tutulur. Sənədi KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və Blişim Vadisinin baş meneceri Erkam Tüzgen imzalayıblar.

Qeyd edək ki, "KOB-ların "yaşıl keçid"i üçün Bakı İqlim Koalisiyası üzrə Birgə Bəyannamə" COP29 çərçivəsində KOBİA tərəfindən irəli sürülüb. Qlobal müstəvidə KOB-ların "yaşıl hərəkatı"nın yaradılması məqsədi daşıyan bəyannaməyə qoşulan ölkələrdə KOB-ların "yaşıl keçid"inin asanlaşdırılması və bu sahədə qarşılaşdıqları çətinliklərin aradan qaldırılması üçün bir sıra tədbirlər nəzərdə tutulur. Artıq sözügedən bəyannaməyə 20-dən çox beynəlxalq təşkilat və xarici ölkələrin milli qurumları qoşulub.

Digər sənəd Malayziyanın "Berhad" Halal İnkişaf Korporasiyası ilə KOBİA arasında imzalanıb. Anlaşma Memorandumunu "Berhad" Halal İnkişaf Korporasiyasının baş icraçı direktoru Hairol Arifeyn Bin Sahari və KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov imzalayıb. Sənəddə hər iki qurumun imkanlarından istifadə olunmaqla biznes, investisiya və ixrac, eləcə də halal sənaye kimi sahələrdə bilik və təcrübə mübadiləsinin aparılması, birgə təlim proqramlarının icrası və s. istiqamətlərdə əməkdaşlıq nəzərə tutulur.

## Birinci yarımilə sığorta ödənişləri 87 milyon manat artıb

**"Cari ilin birinci yarımilinə verilmiş sığorta ödənişləri ötən ilin müvafiq dövrünə nisbətdə 25 faiz (87 milyon manat) artaraq 432 milyon manata çatıb".**




Bunu Mərkəzi Bankın Maliyyə sabitliyi departamentinin direktoru Ataxan Həsənov "Maliyyə Sabitliyi Hesabatı" ilə bağlı keçirilən brifinqdə çıxışı zamanı deyib. O qeyd edib ki, sığorta ödənişlərinin 70 faizi həyat sığorta siniflərindən, 30 faizi isə qeyri-həyat sığorta siniflərindən formalaşıb.

"Birinci yarımil ərzində həyat sığortası üzrə sığorta ödənişləri 29 faiz artaraq 303 milyon manat, qeyri-həyat sığortası üzrə isə 16 faiz artaraq 129 milyon manat təşkil edib. Həyat sığortası üzrə artımın əsas qüvvəsi könüllü sığorta, qeyri-həyat sığortası üzrə artımının əsas qüvvəsi isə icbari sığorta sinifləri olub. Birinci yarımil ərzində sığorta sektorunun aktivləri 4,5 faiz (93 milyon manat) artaraq 2,14 milyard manata çatıb. Aktivlərin 40 faizini (856 milyon manat) dövlət qiymətli kağızları, 28 faizini (600 milyon manat) bank vəsaitləri, 11 faizi (236 milyon manat) qeyri-dövlət qiymətli kağızları, 8 faizini (163 milyon manat) debitor borclar təşkil edir. Bu ilin birinci yarımili ərzində sektorun öhdəlikləri isə 7,3 faiz (105 milyon manat) artaraq 1,55 milyard manata çatıb. Öhdəliklərin 73 faizi sığorta haqları ehtiyatı, 18 faizi sığorta hadisələri ehtiyatı 9 faizi digər öhdəliklər təşkil edir", - deyə departament direktoru vurğulayıb.




# Azərbaycanın çövkən millisi komandamıza daha bir qızıl medal qazandırdı



Oktyabrın 7-də - III MDB Oyunlarının 12-ci günündə 4 idman növü üzrə yarışlar keçirilib. Şəki Şəhər Stadionunda çövkən üzrə qızıl medal uğrunda matçda Azərbaycan və Özbəkistan milliləri qarşılaşıblar. Final görüşündə Azərbaycan komandası qalib gələrək (3:0) III MDB Oyunlarının qalibi olub.









Üçüncü yer uğrunda görüşdə isə Qırğızıstan yığması Qazaxıstana qalib gələrək (2:0) turnirin bürünc medalına sahib çıxıb. Bununla da çövkən yarışlarına yekun vurulub.

Azərbaycanın çövkən yığmasının baş məşqçisi Namiq Orucov jurnalistlərə açıqlamasında deyib: "İlk dəfədir MDB Oyunlarına qatılmışdıq. Yarış yüksək səviyyədə keçirildi. Təşkilatçılara minnətdarlığımı bildirirəm. Bu nailiyyət Azərbaycan atçılığı üçün çox yüksək nəticədir. Çox şadıq ki, 50-yə yaxın ölkə Beynəlxalq Çövkən Federasiyasına üzv olub. Növbəti illərdə komandaların sayı arta bilər".

Çövkən millisinin üzvü Vahid Məmmədov finalda qazandıqları qələbəni Azərbaycan Ordusuna həsr etdilkərini bildirib: "Özbəkistanla görüş gərgin keçdi. Finala həm özümüzü, həm də atlarımızı yaxşı hazırlamışdıq. Ona görə də qələbə qazandıq. Qələbəmizi şanlı Azərbaycan Ordusuna həsr edirik".

Özbəkistan Çövkən Federasiyasının baş katibi Mahmud Maxomiç III MDB Oyunlarının yüksək səviyyədə təşkilinə görə Azərbaycana minnətdarlığını bildirib və yığmanın nəticəsi barədə deyib: "III MDB Oyunlarını təşkil edən Azərbaycan rəhbərliyinə minnətdarlığımızı bildiririk. Atlar, həmçinin idmançılar üçün yüksək şərait yaradılmışdı. Qazaxıstan və Qırğızıstan komandaları da güclüdür. Finalda qarşılaşdığımız Azərbaycan yığması yaxşı oynadı və qələbə qazandı". Şəki Olimpiya İdman Kompleksində isə bədii gimnastika yarışları davam edib. Azərbaycanın iki bədii gimnastı III MDB Oyunlarında finala vəsiqə qazanıb. Milli komandamızın üzvü Şəms Ağahüseynova lentlərlə çıxışda adını finala yazdırıb. Fidan Qurbanlı isə gürzlərlə çıxışa görə finala adlayıb. Azərbaycanın bədii gimnastı III MDB Oyunlarında gümüş medal qazanıb - Azadə Atakişiyeva çoxnövçülükdə ikinci yeri tutub. Bədii gimnastika üzrə komandamız isə (Nur Sadıqova, Şəms Ağahüseynova, Fidan Qurbanlı və Azadə Atakişiyeva) üçüncü yerə çıxaraq bürünc medala sahib olub. Bədii gimnastika yarışlarına bu gün yekun vurulacaq.

Gəncə İdman Sarayında qılıncoynatma yarışlarının qalibləri müəyyənləşib. Şpaqa növü üzrə oğlanlardan ibarət Azərbaycan millisi final görüşünü keçirib. Komandamız həlledici qarşılaşmada Rusiya seçməsi ilə üz-üzə gəlib və 35:45 hesabı ilə uduzaraq gümüş medalla kifayətlənib.

"Yarış maraqlı idi. Final görüşü bir az çətin oldu. Əlimizdən gələni etdik, amma qızıl medal qazana bilmədik". Bunu jurnalistlərə açıqlamasında şpaqa növü üzrə qılıncoynatma millimizin üzvü Emin Səfərbəyov deyib: "Bu yarışlar idmançılarımız üçün yaxşı təcrübə oldu. Üzərimizdə daha yaxşı işləməliyik. Komanda yoldaşlarımla birgə hədəfimiz növbəti yarışlarda böyük uğurlara nail olmaq, qızıl medala sahib çıxmaqdır".

Qılıncoynatmanın sablya növü üzrə qızlardan ibarət komandamız finalda Rusiya yığmasına 35:45 hesabı ilə uduzub və yarışı ikinci yerdə bitirib.

Gəncə İdman Kompleksində təşkil olunan yunan-Roma güləşi üzrə yarışlarda Azərbaycanın 6 təmsilçisi fəxri kürsüyə yüksəlib. Bunlardan Elşad Abbasov (51 kiloqram), Əli Nəzərov (60 kiloqram) və İslam Sultanov (71 kiloqram) qızıl, Yusif Mirzəyev (48 kiloqram) və Nicat Yeylaqaliyev (80 kiloqram) gümüş, Hikmət Haqverdiyev (55 kiloqram) isə bürünc mükafata sahib çıxıblar.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***
***Naftalan-Şəki-Naftalan***

# Qazaxda III MDB Oyunlarının iştirakçıları ilə görüş keçirilmişdir

Rayon icra hakimiyyətində keçirilən görüşdə Azərbaycan Güləş Federasiyasının baş katibi Pərvin Piriyev, baş katibin idman işləri üzrə müavini Orxan Məmmədov, federasiyanın nümayəndəliklərlə iş şöbəsinin müdiri Elfaq Səfərov, idmanın sərbəst güləş növü üzrə Avropa çempionu Namiq Abdullayev, yunan-Roma güləşi üzrə dünya və olimpiya çempionları Fərid Mansurov və Rafiq Hüseynov iştirak etmişlər.



Qonaqları salamlayan RİH-in başçısı Rəcəb Babaşov sazın-sözün beşiyi sayılan Qazaxın həm də idmançıları ilə tanındığını qeyd etmişdir. Sərbəst güləş, yunan-Roma güləşi idman növlərində adını tarixə yazdıran qazaxlı idmançıların yarışlarda, çempionatlarda qızıl, gümüş, bürünc medallar əldə etdiklərini bildirmişdir. Dövlətimiz tərəfindən idmana və idmançılara göstərilən qayğıdan, eləcə də ölkəmizdə sərbəst və yunan-Roma güləşi idman növlərinin inkişafı istiqamətində görülmüş işlərdən söz açan R.Babaşov həmin qayğının bu gün də davam etdirildiyini vurğulamışdır.

Görüşdə iştirak edən idmançılardan Namiq Abdullayev, Fərid Mansurov, Rafiq Hüseynov və başqaları çıxış edərək görüşü rayonda gənclərə, idmançılara olan diqqətin, dövlət gənclər siyasətinin uğurla icra olunmasının nümunəsi kimi qiymətləndirmiş, Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən idmançılara göstərilən dəstəkdən danışmışlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Ruben Vardanyanın məhkəməsində zərərçəkmişlərin hüquqi varislərinin və zərərçəkmiş şəxslərin ifadələri dinlənilib

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi oktyabrın 7-də davam etdirilib.



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Zərərçəkmiş şəxs Elmir Qənbərovun hüquqi varisi - atası Rayil Qənbərov bildirib ki, övladı Xocavənddə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəşlər nəticəsində həlak olub.

Zərərçəkmiş şəxs Səfiyar Məmmədovun hüquqi varisi Şəhriyar Məmmədov ifadəsində qardaşının Kəlbəcərdə düşmən atəşi nəticəsində həlak olduğunu söyləyib.

Zərərçəkmiş şəxs Müzəffər Cəfərov ifadəsində Laçında sanitar avtomobillə yaralıları təxliyə edərkən Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində xəsarət aldığını söyləyib. Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş şəxs sanitar avtomobilin üzərində tibbi yardım maşını nişanının olduğunu, buna baxmayaraq atəşə tutulduqlarını söyləyib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran zərərçəkmiş Nicat Əlizadə düşmənin açdığı atəş nəticəsində Xocalı rayonu istiqamətində xəsarət aldığını deyib.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran zərərçəkmiş Fuad Kərimov Ağdərə istiqamətində düşmənin təxribatı nəticəsində xəsarət aldığını bildirib.

Ruslan Məmmədli Ağdərə istiqamətində düşmənin açdığı atəşlər nəticəsində ayaqlarından, qolundan və bədəninin digər nahiyələrindən xəsarətlər aldığını söyləyib. Səhhətində hazırda problemlər qalır. O, dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında hadisə zamanı həlak olanların və özündən başqa yaralananların da olduğunu deyib.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran Murad Abbaslı Kəlbəcərdə düşmənin açdığı atəş nəticəsində yaralandığını bildirib.

Elmir Sadıqov Xocalı istiqamətində düşmənin açdığı atəşlər nəticəsində yaralandığını deyib.

Əvəz Zeynalov Ağdərə rayonunun Talış kəndində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin atəşi nəticəsində xəsarət aldığını söyləyib.

Rəvan Rzayev və Cəmaləddin Nəsirov Xocalı rayonunun Şuşakənd kəndində düşmənin açdığı atəş nəticəsində yaralandıqlarını bildiriblər. R.Rzayev deyib ki, hadisə nəticəsində bir neçə nəfər



ölüb, özündən başqa daha bir neçə şəxs yaralanıb.

Ayxan Kərimli Xankəndi istiqamətində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı artilleriya atəşi nəticəsində qəlpə yaraları aldığını bildirib. Hadisə zamanı bir nəfər həlak olub, bir neçə nəfər isə yaralanıb.

Vüsal İsazadə Şuşa rayonunun Xəlfəli kəndində düşmənin drondan atdığı qumbaranın partlaması nəticəsində yaralandığını bildirib. Qeyd edib ki, hadisə zamanı yanında olmuş Mürsəl Əlizadə və Elman Süleymanov da xəsarət alıb.

Nicat İsgəndərov Şuşada Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin təxribatı nəticəsində xəsarət aldığını söyləyib.

Fuad Əmirov Şuşa rayonunun Xəlfəli kəndində düşmənin açdığı atəş nəticəsində yaralandığını bildirib.

Vurğun Sayılov Şuşa-Xankəndi istiqamətində düşmən atəşi nəticəsində yaralandığını söyləyib.

Şükür Əskərov yaralıları təxliyə edən zaman düşmənin açdığı atəşlər nəticəsində yaralandığını bildirib. Zərərçəkmiş deyib ki, təxliyə maşınının üzərində onun tibbi nəqliyyat vasitəsi olduğunu göstərən nişan olub. Buna baxmayaraq, nəqliyyat vasitəsi atəşə tutulub.

Kamran Talıblı Ağdərə istiqamətində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin atəşi nəticəsində xəsarət aldığını söyləyib. O deyib ki, hadisə zamanı həyatını itirən və özündən başqa xəsarət alanlar da olub.

Cahid Asdanov ifadəsində yaralıları daşıyarkən düşmən tərəfindən açılmış atəşlər nəticəsində yaralandığını bildirib.

Elgün Yusifli Xocavənddə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin atəşi nəticəsində yaralandığını bildirib.

Zərərçəkmiş şəxs təqsirləndirilən R.Vardanyanın suallarına cavabında onunla tanışlığının olmadığını, sosial şəbəkələr və mətbuat vasitəsilə tanıdığını deyib.

İfadə verən zərərçəkmiş şəxs Elnur Xəlilov Xankəndidə düşmənin açdığı atəş nəticəsində hər iki ayağından yaralandığını bildirib.

Zərərçəkmiş Xalid Həsənov ifadəsində Xocavənd rayonu ərazisində düşmənin açdığı atəş nəticəsində xəsarət aldığını söyləyib. O, hadisə zamanı düşmənin müxtəlif silahlardan atəş açdığını bildirib.

R.Vardanyan X.Həsənova da oxşar sual verərək onu tanıyıb-tanımadığını soruşub. Zərərçəkmiş şəxs isə onu sosial şəbəkələr və mətbuat vasitəsilə tanıdığını bildirib.

Vüqar Məmmədzadə Xocavənddə düşmənin açdığı atəşlər nəticəsində özünün və yaxınlığındakı şəxslərin yaralandığını bildirib. Hadisə zamanı iki nəfər həlak olub.

Osman Cabbarlı Xocalı istiqamətində düşmənin açdığı atəş nəticəsində yaralandığını söyləyib.

Rövşən Əzimli ifadəsində Xocalı-Xankəndi istiqamətində düşmənin təxribatı nəticəsində yaralandığını bildirib.

İfadə verən digər zərərçəkmiş şəxslər - Mirdamət Xankişiyev, Anar Əsgərzadə, Mürsəl Əlizadə, Cabbar Cabbarzadə, Qalib Məmmədov, Qismət Əhmədov, Vüsal Məmmədov, Elsevər Qədirov, Arzuman Xankişiyev, Məhəmməd Abdullayev Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin atəşləri nəticəsində müxtəlif ərazilərdə yaralandıqlarını bildiriblər.

Sonra zərərçəkmiş şəxslər barəsində məhkəmə-tibbi ekspertizanın rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası oktyabrın 14-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə anası

**TÜKƏZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4095
Sifariş 2051

Qiyməti 60 qəpik